RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 106 (8699) ÇƏRŞƏNBƏ AXŞAMI, 25 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Amerika xalqı adından Sizə və Azərbaycan xalqına 28 May - Respublika Günü münasibətilə səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Bu il Azərbaycanın müstəqilliyinin 1991-ci ildə bərpa edilməsindən 30 il keçir. Bu müddət ərzində Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası xalqlarımız arasında əlaqələri gücləndirərək təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində birlikdə çalışıblar.

Amerika Birləşmiş Ştatları ötən il "Cənub qaz dəhlizi"nin işə salınması ilə Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfələri və bu il Xəzərdəki yatağın Türkmənistanla birgə kəşfiyyatına və işlənməsinə dair imzaladığı Anlaşma Memorandumunu qətiyyətlə dəstəkləyir. Biz Azərbaycana NATO-nun Əfqanıstandakı missiyasına və terrorla mübarizə səylərinə verdiyi 20 illik dəstəyə görə minnətdarıq. ATƏT-in Minsk qrupunun həmsədri olaraq münaqişənin uzunmüddətli siyasi həllinə dair danışıqlarda kömək etməyə sadiq qalırıq.

Münaqişə və koronavirus pandemiyası ilə yaddaqalan bir ildən sonra Azərbaycanın bu çətinliklərdən insan hüquqlarına və əsas azadlıqlarına hörmət etməklə və qonşuları ilə sülh içində yaşamaqla daha da firavan bir dövlət kimi çıxmasına ümid edirəm.

Respublika günündə Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

*Səmimiyyətlə,*

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə Çin Xalq Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə və dost Azərbaycan xalqına səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Hazırda Çin-Azərbaycan münasibətlərində fəal inkişaf dinamikası müşahidə olunur. Ölkələrimiz hər iki tərəfin əsas maraqlarına aid məsələlərdə bir-birini dəstəkləyir. "Bir kəmər, bir yol" müştərək layihəsi üzrə ölkələrimizin əməkdaşlığı dərinləşməkdə davam edir, COVID-19 pandemiyasına qarşı birgə mübarizədə nəzərəçarpacaq nəticələr əldə olunub. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və bütün işlərinizdə uğurlar, dost Azərbaycana və onun xalqına firavanlıq, xoşbəxtlik arzu edirəm.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Azərbaycan xalqına və Zati-alinizə təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Keçirdiyimiz bu çətin ildən sonra qlobal səhiyyənin üzləşdiyi maneələri dəf edəcəyimizə və gələcəkdə daha gözəl günlər yaşayacağımıza olan ümidimi ifadə etmək istəyirəm.

*Dərin hörmətlə,*

***Ülyahəzrət II ELİZABET,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası***



# Diplomatik məharətin mükəmməl örnəyi

## İlham Əliyevin yeni informasiya strategiyası Azərbaycanın mövqeyini uğurla beynəlxalq ictimaiyyətə təqdim edir

İkinci Qarabağ müharibəsində hərbi-siyasi qələbə ilə bölgədəki statusunu bir qədər də möhkəmləndirən Azərbaycan, indi qalib ölkə kimi yeni reallıqlara uyğun qaydaları özü müəyyənləşdirir. Postmüharibə dövründə yeni inkişaf və əməkdaşlıq əlaqələrinin yol xəritəsini hazırlayan Prezident İlham Əliyev məğlub Ermənistana da düşdüyü acınacaqlı durumdan qurtuluş yolunu göstərir.

Lakin bu gün də bəzi ölkələrdə erməni lobbisinin sifarişi ilə Azərbaycana qarşı kampaniya aparanlar və haqq işimizə kölgə salmağa çalışanlar var. Odur ki, indi dünya Azərbaycanın yaratdığı yeni reallıq, ermənilərin 30 ilə yaxın müddət ərzində işğal altında saxladıqları ərazilərimizdə törətdikləri vəhşiliklər haqqında geniş şəkildə məlumatlandırılmalıdır.

İlham Əliyev keçirdiyi bütün tədbirlərdə, görüşlərdə, yerli və xarici mətbuata verdiyi müsahibələrdə əsl həqiqətləri dünyaya çatdırmaqla Azərbaycanın mövqeyini ortaya qoyur. Bütün bunlar təbii ki, İlham Əliyevn yeni informasiya strategiyasının tərkib hissəsidir.

### Ünvanlı mesajlar dolğun şəkildə dünyaya çatdırılır

Prezidentin ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə səsləndirdiyi fikirlər bu baxımdan mühüm əhəmiyyət kəsb etdi.

Öncə onu vurğulayaq ki, İlham Əliyev bütün çıxışlarında müharibədən sonra regionda yeni əməkdaşlıq əlaqələrinin yarandığını söyləyərək qlobal layihələrin gerçəkləşməsi istiqamətində də real zəmin formalaşdığını bildirib. Prezident deyib ki, artıq müharibə bitib, münaqişə həll olunub. İndi yeni layihələrin ərsəyə gəlməsi üçün çox yaxşı imkanlar yaranıb və bu imkanlardan hətta Ermənistan da yararlana bilər. Amma məğlub ölkə kimi Ermənistan 10 noyabr Bəyanatındakı bəzi maddələrin reallaşdırılması istiqamətində üzərinə götürdüyü öhdəliklərin icrasından boyun qaçırmaq istəyir. Müxtəlif bəhanələr gətirilir və işlər yubanır. Bu azmış kimi, Ermənistandakı bəzi revanşistlər Qarabağda təxribatlar törədəcəkləri ilə bağlı sərsəm fikirlər səsləndirirlər. Azərbaycan Prezidenti bu qüvvələrə, Ermənistan rəhbərliyinə xəbərdarlıqlar edib.

Xatırladaq ki, İlham Əliyev hələ müharibə başlamazdan öncə də Azərbaycan torpaqlarındakı erməni hərbçilərinə bu cür xəbərdarlıqlar etmişdi və bunun nəticəsi onlar üçün çox ağır oldu. Yenə də Prezident konfraslardakı nitqlərində, müsahibələrində ünvanlı mesajlar səsləndirməklə bir daha xatırladır ki, dəmir yumruq yerindədir və istənilən an istənilən təxribatın qarşısını almaq üçün işə düşə bilər.

Prezidentin yeni informasiya strategiyası ölkədə, regionda və dünyada baş verən mühüm proseslərə dair Azərbaycanın mövqeyini və müvafiq mesajları daha effektiv şəkildə beynəlxalq ictimaiyyətə çatdırmaq imkanı verir.

Hələ 44 günlük Vətən müharibəsinin qızğın döyüşləri zamanı Azərbaycanın haqq səsini xarici KİV vasitəsilə dünya birliyinə çatdıran İlham Əliyevin atdığı hər bir addım, verdiyi hər bir qərar Qarabağın işğaldan azad edilməsi prosesində qələbəmiz üçün müstəsna əhəmiyyət kəsb etdi.

Savaş dövründə mətbuata verdiyi müsahibələrdə İlham Əliyev bütün məsələlərə mahiyyəti üzrə aydınlıq gətirdi və onlara sistemli yanaşma nümayiş etdirdi. Bütün sualları məntiqlə və əhatəli şəkildə təhlil edib cavablandıran Prezident bununla da Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırdı. Siyasi və hərbi ekspertlər də birmənalı şəkildə İlham Əliyevin müzakirə və debatlarda, mətbuat konfranslarında ən mürəkkəb suallara açıqlığını və onları peşəkar formada cavablandırmaq bacarığını, yüksək məntiqini, intellektini, diplomatik məharətini, dünyada, regionda baş verən hadisələr, cərəyan edən proseslər barədə tam məlumatlılığını, elmi-politoloji biliyini yüksək qiymətləndirirdilər.

### Azərbaycan informasiya məkanında Ermənistanın yalanlarını ifşa edir

Birmənalı şəkildə demək olar ki, istər müharibə, istərsə də postmüharibə dövründə İlham Əliyevin yeni informasiya strategiyası Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərk-silah edilməsində mühüm rol oynadı və hazırda da bu siyasət uğurla davam edir.

***Ardı 4-cü səh.***

## Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Emin Zamin oğlu Hüseynov Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 may 2021-ci il*

## Apellyasiya məhkəmələri sədrlərinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Aşağıdakı hakimlər apellyasiya məhkəmələrinin sədrləri təyin edilsinlər:

Əkbərov Mübariz Dosməmməd oğlu - Bakı Apellyasiya Məhkəməsinin sədri

Hüseynov Mirbahəddin Mirdamət oğlu - Gəncə Apellyasiya Məhkəməsinin sədri

Paşayev Tofiq Temir oğlu - Sumqayıt Apellyasiya Məhkəməsinin sədri

Quliyev Nuru Nadir oğlu - Şəki Apellyasiya Məhkəməsinin sədri

Abdullayev Vəli Əsgər oğlu - Şirvan Apellyasiya Məhkəməsinin sədri.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Rəşad Şəmşir oğlu Əliyev Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin.

3. Rafail Əyyub oğlu Əliyev Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin.

4. Tapdıq Şükür oğlu Mahmudov Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 may 2021-ci il*

## Peyvəndləmədən keçmək və qaydalara riayət etmək mütləqdir

Azərbaycanın bütün şəhər və rayonlarında COVID-19 pandemiyasına qarşı peyvəndləmə və dezinfeksiya işləri uğurla davam etdirilir. Artıq bir neçə gündür ki, yaşı 18-dən yuxarı olanlarda da peyvəndləmə aparılır. Əhali arasında peyvəndləmə kütləvi xarakter aldığından, ara məsafəsinə və gigiyenik qaydalara lazımınca əməl olunduğundan yoluxma və ölüm hallarının sayında azalma müşahidə edilir.

Nazirlər Kabinetinin sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Srategiyası"na uyğun olaraq ölkədə koronavirus əleyhinə vaksinasiyanın birinci mərhələsindən başlayaraq insanlar peyvəndləmə əməliyyatına cəlb olunmuşlar. Artıq nazirlik, komitə, şirkət, idarə və müəssisələrin bir çoxunda peyvəndləmə başa çatdırılıb. Xəstəxana və müəssisələrdə bu iş davam etdirilir. Virusa qarşı immun sistemini gücləndirmək məqsədilə bu aksiyada könüllü iştirak edənlər də çoxdur. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğıları sayəsində əhalinin sağamlığının qorunması istiqamətində peyvəndləmə əhalidə məmnunluq doğurur.

Pandemiyanın yumşaldıcı tələb və tövsiyələrinə, peyvəndləmə əməliyyatına baxmayaraq, ölkə ərazisində bu amansız virusa qarşı mübarizə tədbirləri mütəmadi olaraq davam etdirilir. Yazın gəlişi bu prosesi daha da sürətləndirib.

***Ardı 4-cü səh.***

## İlham Əliyev "ruhlar şəhəri"ni cənnətə çevirəcək

### Ağdamda quruculuq işləri başlayıb

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki parlaq hərbi-siyasi zəfəri işğaldan azad olunan ərazilərimizə yeni nəfəs verdi. İndi bu torpaqlarda həyat canlanmağa başlayır, qurumuş bulaqlar yenidən çağlayır. Ermənistanın işğal dövründə dağıtdığı, talan etdiyi şəhər və rayonlarımız Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə kompleks şəkildə bərpa olunur, yenidən qurulur.



Torpaqlarımızın işğaldan azad olunmasından sonra dünya Azərbaycanın qələbəsi ilə yanaşı, başqa bir reallığa da şahidlik etdi. Şəhər və kəndlərimiz azad olunduqca əyani şəkildə aydın oldu ki, işğalçı yaşayış məntəqələrimizdə daşı daş üstə qoymayıb. Düşmən tarixi və dini abidələrimizə də qənim kəsilib. Onları erməniləşdirmək istəyib, amma bacarmadığı üçün dağıdıb. Talançılıq edərək tarixi eksponatları Ermənistana daşıyıblar. Yeraltı və yerüstü sərvətlərimizi 30 il ərzində qanunsuz şəkildə istismar ediblər və ya oğurlayıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olub, meşələr, qiymətli ağac növləri kəsilib, tarixi orta əsrlərə qədər uzanan ağaclar məhv edilib. Ermənistan bütün bunlara görə cavab verəcəkdir.

İşğaldan azad olunmuş ərazilərimizə "Böyük Qayıdış" isə çoxdan başlayıb. Hələ müharibənin davam etdiyi günlərdən Prezident İlham Əliyevin göstəriş və tapşırıqları ilə azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində layihələr icra olunur.

***Ardı 4-cü səh.***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına şəxsən öz adımdan və həmvətənlərim adından səmimi təbriklərimi çatdırıram.

Biz son 29 ildə hökumətlərimiz və xalqlarımız arasında münasibətlərimizi daim genişləndirmiş və inkişaf etdirmişik. Ümid edirəm ki, biz qarşılıqlı anlaşmanı və etimadı daha da gücləndirməyə nail olacağıq. Bizi, həmçinin dünyada COVID-19 pandemiyasına qarşı mübarizədə birgə səylərimiz birləşdirir. Ötən il baş vermiş hərbi toqquşmalardan sonra Qarabağ bölgəsindəki münaqişənin davamlı həlli istiqamətində siyasi və diplomatik irəliləyişlərin olacağına ümid edirəm. Əmin ola bilərsiniz ki, Almaniya Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun üzvü kimi bunun üçün əlindən gələni əsirgəməyəcək.

Ümidvaram ki, ölkənizlə hərtərəfli münasibətlərimiz imkan yaranan kimi keçiriləcək yeni şəxsi görüşlər və səfərlər vasitəsilə davam etdiriləcək.

Sizə ən xoş arzularımı çatdırır, xalqınıza sülh, azadlıq və rifah dolu gələcək arzulayıram.

*Hörmətlə,*

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri, Qardaşım İlham Heydər oğlu Əliyev.

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikası hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirik.

Zati-alinizə hörmət və ehtiramla,

*Qardaşınız*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək dünyanı çağırışlarla üz-üzə qoyan belə bir zamanda Sizə şəxsi əmin-amanlıq, həmçinin Azərbaycan xalqına xoşbəxt və dinc gələcək dolu ən gözəl arzularımı çatdırıram.

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə ən xoş təbriklərimi çatdırır, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər gələcək illərdə daha da güclənəcək, xalqlarımızın dostluğu və əməkdaşlığı daha da dərinləşəcək.

Zati-alinizə möhkəm cansağlığı və bütün işlərinizdə davamlı uğurlar, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

***Mun Ce-İN,***
***Koreya Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan çox məmnunam.

Biz Azərbaycanı qədim və zəngin mədəni irsə malik olan ölkə, Sizin hərtərəfli düşünülmüş və uzaqgörən siyasətiniz sayəsində bütün sahələrdə sürətli tərəqqiyə nail olmuş, öz milli maraqlarının səmərəli müdafiəsində və tarixi ədalətin bərpa edilməsində böyük uğurlar qazanmış dövlət hesab edirik, bundan sonra da sizi hərtərəfli dəstəkləməyə hazır olduğumuzu bildiririk.

Tam əminəm ki, bizim qardaş xalqlarımız arasında qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan çoxəsrlik dostluq və strateji tərəfdaşlıq telləri birgə səylərimiz və yüksək səviyyədə səmərəli dialoq sayəsində daha da möhkəmlənəcək və bütün prioritet istiqamətlərdə tamamilə yeni səviyyəyə yüksələcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, tükənməz enerji, ailə səadəti, məsuliyyətli dövləti fəaliyyətinizdə böyük uğurlar, dost Azərbaycan xalqına isə sülh, firavanlıq və davamlı inkişaf arzulayıram.

Hörmətlə,

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və bütün qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Biz azərbaycanlı tərəfdaşlarımızın sosial-iqtisadi inkişafda qazandığı böyük uğurlara, xalqın rifahının yüksəldilməsinə, habelə ölkənizin dünya arenasında nüfuzunun artmasına görə səmimi-qəlbdən sevinirik.

Bu gün Azərbaycan ilə əməkdaşlıq Tacikistanın xarici siyasət prioritetlərində mühüm yer tutur. Biz Tacikistan ilə Azərbaycan arasında səmimi və məzmunlu dostluq münasibətlərinin davamlı olaraq möhkəmlənməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, biz ümumi səylərimizlə ölkələrimizin bunun üçün mövcud olan potensial imkanlarını tam reallaşdıra biləcəyik, xalqlarımızın dinc və xoşbəxt gələcəyi naminə qarşıya qoyduğumuz məqsədlərə nail olacağıq.

Əziz İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və ölkənizin rifahı naminə yeni uğurlar, dost Azərbaycan xalqına sülh, firavanlıq və daha böyük tərəqqi arzu edirəm.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

Zati-aliləri!

Əs-səlamuəleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Zati-alinizə Uca Allahdan möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan Respublikası ilə sıx əlaqələri yüksək qiymətləndirir və məqsədi İslam dəyərlərinin birgə təşviqi olan qurumun fəaliyyətinin dəstəklənməsi işində ölkənizin rolunu təqdir edir. İƏT üzv dövlətlərin ümumi dəyərlərinin təbliği və ölkələr arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcək.

Ümidvaram ki, zati-aliniz üzv ölkələrin xalqları arasında həmrəyliyin möhkəmləndirilməsinə və birgə İslam fəaliyyəti üçün yeni üfüqlərin açılmasına dəstəyini və töhfələrini bundan sonra da əsirgəməyəcək.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Yusif bin Əhməd Əl-OSAYMİN,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

Əs-səlami əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikası hökumətinə və xalqına daha böyük inkişaf və firavanlıq arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,***
***Baş nazirin müavini, müdafiə naziri***

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Azərbaycanın sosial-iqtisadi inkişafında və beynəlxalq arenada nüfuzunun artırılmasında Sizin rəhbərliyinizi və önəmli töhfələrinizi qeyd edərək, ölkənizin daha yüksək zirvələrə çatdırılması istiqamətindəki fəaliyyətinizdə Sizə böyük uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında ümumi mənəvi dəyərlərə və dostluğa, həmçinin strateji tərəfdaşlığa söykənən hərtərəfli qarşılıqlı faydalı əlaqələr xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, məsuliyyətli işinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq diləyirəm.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası***

Zati-aliləri, əziz qardaşım.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə şəxsən öz adımdan və Mərakeş xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Fürsətdən istifadə edərək bildirirəm ki, ölkələrimiz arasında uzunmüddətli, səmimi münasibətlərə böyük önəm verirəm və bütün sahələrdə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində Sizinlə birgə çalışmağa davam edəcəyəm.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

Zati-aliləri!

28 May - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, zati-alinizə cansağlığı və xoşbəxtlik, eləcə də xalqınıza davamlı tərəqqi, firavanlıq diləyir, ən xoş arzularımı çatdırıram.

Ümidvaram ki, İndoneziya və Azərbaycan arasında mövcud olan dostluq münasibətləri xalqlarımızın və ölkələrimizin rifahı naminə davamlı inkişaf edəcək.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı, Sizə möhkəm cansağlığı və rifah arzularımı qəbul edin.

***Coko VİDODO,***
***İndoneziya Respublikasının Prezidenti***

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sinqapur xalqı adından ölkənizə və xalqınıza ən səmimi təbriklərimi yetirir, habelə davamlı sülh, xoşbəxtlik və rifah diləyir, ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

COVID-19 pandemiyasına qarşı mübarizədə birgə səylərimizi davam etdirdiyimiz bir dövrdə Sinqapur insanların həyatının, yaşayışının qorunması və pandemiyanın təsirinin azaldılması üçün bundan sonra da beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq edəcək.

*Hörmətlə,*

***Xanım Həlimə YAQUB,***
***Sinqapur Respublikasının Prezidenti***

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Respublika Günü münasibətilə Kolumbiya xalqı və hökuməti adından Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Mən 1918-ci ildə Azərbaycan Milli Şurası tərəfindən müstəqilliyin elan edilməsinin və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasınınqeyd olunduğu bu tarixi günlərdə Zati-alinizə bildirmək istəyirəm ki, Kolumbiya hökuməti xüsusilə turizm, mədəniyyət, təhsil sahələrində əməkdaşlıq etməklə, həmçinin siyasi və iqtisadi əlaqələrimizimöhkəmləndirməkləAzərbaycanla olan münasibətlərini daha da inkişaf etdirmək niyyətindədir.

Ölkələrimiz arasında indiyə qədər keçirilmiş yüksəksəviyyəli görüşlər, həmçinin vaxtaşırı aparılan siyasi məsləhətləşmələr zamanı ikitərəfli əlaqələrin yaxşılaşdırılmasıvə xalqlarımızın rifahının daha da artırılması üçün səylərimizi, qarşılıqlı maraqlar çərçivəsində birgə işləmək barədə ümumi mövqeyimizi əks etdirən davamlı siyasi dialoqu vurğulamaq istəyirəm.

Hazırkı qlobal səhiyyə böhranı bir çox sahələrdə, xüsusilə də COVID-19 virusuna qarşı peyvəndə şəffaf əlçatanlığın təmin edilməsində, eləcə də pandemiya ilə mübarizədə elmi və texnoloji əməkdaşlığı, təcrübə mübadiləsini təşviq edən təşəbbüslərdə əl-ələ verib birgə işləmək üçün imkan yaradır.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə yüksək hörmət və ehtiramımı bildirir, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

***İvan Duke MARKES,***
***Kolumbiya Respublikasının Prezidenti***

Zati-aliləri!

Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına bütün kanadalılar adından ən səmimi arzularımı çatdırıram.

Xalqlarımız arasındakı əlaqələr Kanadada fəal azərbaycanlı icmasının töhfələri ilə daha da güclənir, ikitərəfli münasibətlərimiz üçün möhkəm zəmin yaradır. Biz həmçinin beynəlxalq əməkdaşlığımızı, mədəniyyət, təhsil və ticarət sahələrində əlaqələrimizi, qadınlara daha geniş hüquqlar verilməsi, həmçinin hamı üçün ədalətli gələcəyin qurulması işinə sadiqliyimizi qeyd edə bilərik.

Ötən il bir çox ciddi çağırışlar yaratdı. Kanada qarşıda daha yaxşı günlərin olacağına ümid edir və biz normal həyata qayıtmağa səbirsizliklə hazırlaşarkən bütün Azərbaycan xalqına sülh və rifah diləyirik.

Ölkənizin müstəqilliyini qeyd etdiyiniz bu əlamətdar gündə bütün Azərbaycan xalqının, eləcə də Kanada azərbaycanlılarının sevincinə qoşularaq Sizi bir daha təbrik edir, daha işıqlı gələcək arzulayırıq.

*Səmimiyyətlə,*

***Riçard VAQNER,***
***Kanada Hökumətinin administratoru***

Möhtərəm cənab Prezident!

Sizi Respublika Günü münasibətilə ürəkdən təbrik edir, işlərinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

1993-cü ildə müstəqilliyimiz böyük təhlükə ilə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqilliyimizi qoruyub saxladı. Qısa bir zamanda Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın qabaqcıl şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz regionda aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycana barış və inkişaf gətirdi.

Siz Heydər Əliyev dəyərlərinə yeni nəfəs gətirdiniz. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi Sizin məqsədyönlü siyasətiniz nəticəsində mümkün oldu. Bu il Azərbaycan xalqı Müstəqillik gününü qalib xalq kimi qeyd edir. Sizin rəhbərliyinizlə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi və əminəm ki, doğma yurdlarını tərk etmiş vətəndaşlarımız qısa bir zamanda çiçəklənən Qarabağa qayıdacaqlar.

Bu günlərdə Şuşada Sizin təşəbbüsünüzlə keçirilən "Xarıbülbül" festivalı dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan tolerant, multikultural dövlətdir və burada yaşayan hər bir xalqa öz mədəni dəyərlərinin inkişafı üçün lazımi şərait yaradılır.

Möhtərəm cənab Prezident.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsi xalqımızın Qələbəsi ilə başa çatdı və qarşıda ölkəmizi böyük bərpa işləri gözləyir. Əminəm ki, bu sahədə də Sizin dərin, düşünülmüş siyasətiniz öz nəticələrini verəcək, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın gözəlliyi və mənəvi həyatı özünə qaytarılacaq.

Sizə işlərinizdə yeni uğurlar, möhkəm cansağlığı və ailə səadəti arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının***
***Parlament Məclisinin Baş katibi***

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə daimi ehtiramımı və ən səmimi təbriklərimi çatdırıram.

İcazə verin, bu bayram günündə Sizə və dost Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, sülh, sabitlik və əmin-amanlıq arzulayım.

İctimai-siyasi və sosial-iqtisadi sahələrdə mühüm uğurlar əldə edən Azərbaycan bu gün dünya arenasında layiqli yer tutur.

Azərbaycan Respublikası hər zaman Həştərxan vilayəti üçün əsas tərəfdaş olub və bu, hazırda da belədir. Sizin şəxsi diqqətiniz sayəsində dostluq ənənələrinə, mehriban qonşuluq və qarşılıqlı etimada əsaslanan əməkdaşlığımız uzun illər ərzində uğurla inkişaf edir və möhkəmlənir. Əminəm ki, Həştərxan-Azərbaycan çoxşaxəli əlaqələri bundan sonra da məhsuldar və intensiv olacaq, qarşılıqlı fəaliyyətimiz isə xalqlarımızın mənafeləri naminə bütün istiqamətlərdə davam edəcək.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru***

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 18; 2001, № 11, maddə 687, № 12, maddə 731; 2003, № 1, maddə 23; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 11, maddə 928; 2007, № 1, maddə 4, № 7, maddə 712; 2010, № 7, maddə 591; 2011, № 6, maddə 477, № 7, maddə 584, № 12, maddə 1092; 2013, № 7, maddə 788; 2015, № 3, maddə 252; 2016, № 6, maddə 991; 2018, № 7 (I kitab), maddə 1423; 2020, № 6, maddə 678, № 7, maddə 856, № 8, maddə 1007) 11-ci maddəsinin beşinci hissəsinin ikinci cümləsinə "yerinə yetirilməsinə" sözlərindən sonra "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2021-ci il*

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 25; 2002, № 5, maddə 262, № 8, maddə 478; 2011, № 4, maddə 278; 2018, № 7 (I kitab), maddə 1469; 2020, № 6, maddə 711, № 8, maddə 1025) 2.1-ci bəndinə "dördüncü hissəsində" sözlərindən sonra ", beşinci hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin beşinci hissəsinin ikinci cümləsinə uyğun olaraq, azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi qaydasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.2. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 may 2021-ci il*

# İşğaldan azad olunmuş ərazilərimizdə inventarlaşdırma işləri davam etdirilir

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə İşçi Qrupunun məlumatına əsasən, "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanına uyğun olaraq, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılması həyata keçirilir və məlumatlar elektron informasiya sisteminə inteqrasiya edilir.

AZƏRTAC xəbər verir ki, artıq 10229 daşınmaz əmlak və 2817 infrastruktur obyekti olmaqla, 13046 əmlakın inventarlaşdırma işləri tamamlanıb.

Bununla yanaşı, 1532 kilometr avtomobil yolunun, 292 kilometr elektrik, 45 kilometr qaz və 19 kilometr su təchizatı xəttinin, 249 kilometr suvarma şəbəkəsinin (kanallar, arxlar və s.) inventarlaşdırılması başa çatdırılıb. 478 000 hektar torpaq sahəsi ortofoto xəritələr əsasında vektorlaşdırılaraq (elektron xəritələşmə) elektron məlumat bazasına daxil edilib.

Ümumilikdə, 10 rayon üzrə 168 yaşayış məntəqəsində işlər yekunlaşdırılıb, 9 yaşayış məntəqəsi üzrə işlər davam etdirilir, 409 yaşayış məntəqəsinin tamamilə dağıdılıb yararsız hala gətirildiyi müəyyən olunub.

Digər yaşayış məntəqələrinə təhlükəsiz giriş imkanları yarandıqca, inventarlaşdırma işləri aparılacaq.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Zəngilan rayonu ərazisində, Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Ermənistanla dövlət sərhədində zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların maddi-texniki təminatı, sosial şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər davam etdirilir.





Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, mayın 24-də Zəngilan rayonu ərazisində, Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.

Bununla əlaqədar təşkil olunmuş mərasimdə DSX rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda işğaldan azad edilmiş dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi məsələlərinə ali dövləti qayğı sayəsində qısa müddətdə bu ərazilərdə zəruri infrastrukturun yaradılması üzrə işlərin sürətlə davam etdirildiyi, hazırkı hərbi hissənin də xidməti-döyüş fəaliyyətinə başlamasının dövlət sərhədlərinin mühafizəsi üçün böyük əhəmiyyət kəsb etməsi bildirilib.

Sonra tədbir iştirakçıları sərhəd komendantlığının şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanış olub, o cümlədən xidməti otaqlara, kazarma və yeməkxanaya, hamam-camaşırxana, anbar, silah və texniki vasitələrə, avtomobil texnikasına baxış keçiriblər.

Tədbirin sonunda xidməti fəaliyyətində fərqlənmiş hərbi qulluqçular təltif olunublar.

# Türkiyə Azərbaycana mənəvi və siyasi dəstək verərək əsl qardaşlıq örnəyi göstərib

## Milli Məclisin sədri Sahibə QAFAROVA: “Azərbaycan və Türkiyə bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcək və bir-birinin yanında olacaqlar”

Mayın 24-də Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb. Spiker Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik edib.



Milli Məclisin sədri bildirib ki, Azərbaycan və Türkiyə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, “Bir millət, iki dövlət” fəlsəfəsinə əsaslanır. Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Spiker xüsusilə qeyd edib ki, 44 günlük Vətən müharibəsi zamanı Türkiyə Azərbaycana yüksək səviyyədə mənəvi və siyasi dəstək verərək əsl qardaşlıq örnəyi göstərib. Sahibə Qafarova iki qardaş ölkə kimi Azərbaycan və Türkiyənin bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcəyinə və bir-birinin yanında olacağına əminliyini ifadə edib.

Türkiyə və Azərbaycanın qanunverici orqanları arasında münasibətlərdən danışan spiker Sahibə Qafarova hər iki ölkənin parlamentində geniş tərkibli dostluq qruplarının fəaliyyət göstərdiyini bildirib. Vurğulanıb ki, deputatlarımızın müxtəlif platformalarda mütəmadi görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Türkiyənin ölkəmizdə yeni təyin olunmuş səfiri Cahit Bağçı səmimi qəbul üçün minnətdarlığını ifadə edərək, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun səmimi salamlarını Milli Məclisin sədrinin diqqətinə çatdırıb. Türkiyə və Azərbaycan arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini, iki qardaş ölkənin bütün məsələlərdə bir-birini dəstəklədiyini qeyd edən səfir dost və qardaş Azərbaycanda fəaliyyət göstərməyin onun üçün şərəfli və böyük məsuliyyət olduğunu deyib. O, fəaliyyəti dövründə əlaqələrimizin daha da dərinləşməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Milli Məclisin sədri səfirə Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Şuşaya qanunla xüsusi status veriləcək



Mayın 24-də Milli Məclisin Mədəniyyət, Hüquq siyasəti və dövlət quruculuğu, İqtisadi siyasət, sənaye və sahibkarlıq və Regional məsələlər komitələrinin birgə iclasında “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

İclasda 15 maddədən ibarət qanun layihəsini təqdim edən Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva 2020-ci ilin Azərbaycan xalqı üçün tarixi ədalətin bərpa olunduğu Zəfər ili, Qələbə ili kimi yaddaşlara köçdüyünü vurğulayıb. O, bu qələbədə Ulu Öndər Heydər Əliyevin vəsiyyətini sədaqətlə yerinə yetirən olan Ali Baş Komandan İlham Əliyevin və müzəffər Azərbaycan Ordusunun müstəsna xidmətlərini qeyd edib.

Məlumat verilib ki, layihəyə görə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılır. Parlamentin müzakirəsinə təqdim olunmuş qanun layihəsi Şuşa şəhərində dövlət siyasətinin əsas istiqamətlərini, Şuşa ərazisində və onun mühafizə zonasında hüquqi tənzimləməni, abidələrin bərpası, qorunması, öyrənilməsi, istifadəsi və təbliğini, ətraf mühitin mühafizəsini, Şuşa ərazisində tikinti, memarlıq və şəhərsalma fəaliyyətini, nəqliyyatın təşkilini, mənzil fondunun idarə edilməsini, sahibkarlıq, reklam, turizm və digər fəaliyyətləri, həmçinin Şuşada beynəlxalq səviyyəli tədbirlərin keçirilməsini və digər bir sıra mühüm məsələləri tənzimləyəcək.

Geniş müzakirələrdə Şuşanın işğaldan azad edilməsinin bütün dünya azərbaycanlıları üçün, türk dünyası üçün tarixi, siyasi, mənəvi əhəmiyyəti xüsusi vurğulanıb. Mədəni irs baxımından bu qədim şəhərin inkişaf tarixinə, Azərbaycanın siyasi və mədəni həyatında oynadığı rola nəzər salınıb, Cənubi Qafqazın konservatoriyası və mədəniyyət mərkəzi olduğu qeyd edilib. Çıxışlarda qanun layihəsi yüksək dəyərləndirilib, sənədin konseptual baxımdan mükəmməl hazırlandığı bildirilib.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanunvericilik tariximizdə çox mühüm bir sənədin qəbul edildiyini bildirib, Şuşanın statusunun xüsusi qanunla müəyyən edilməsini dövlət quruculuğu sahəsində çox mühüm siyasi hadisə kimi dəyərləndirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qeyd edib ki, qanun layihəsində iqtisadi müddəaların yer alması şəhərin iqtisadi həyatının canlanmasına, Şuşanın investorlar üçün cəlbedici olmasına, eyni zamanda Şuşa şəhərinin gələcəkdə innovativ həllər mərkəzi kimi Azərbaycan şəhərlərinə nümunə olmasına imkan yaradacaq.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, bu cür qanunların qəbul edilərək icra olunması sayəsində Şuşa gələcəkdə yalnız bölgənin deyil, ümumiyyətlə, Avropanın ən aparıcı şəhərlərindən və mədəniyyət mərkəzlərindən birinə çevriləcək.

Komitələrin birgə iclasında çıxış edən komitə sədrlərinin müavinləri Qüdrət Həsənquliyev, Fazil Mustafa, Əli Məsimli və Elşən Musayev, deputatlar Nizami Cəfərov, Cavanşir Feyziyev, Əziz Ələkbərov, Novruzəli Aslanov qanun layihəsinin məziyyətlərini qeyd etməklə yanaşı, bir sıra təkliflərini də diqqətə çatdırıblar.

Sonra Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparat rəhbəri Rəşad İsmayılov, Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov, DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Dövlət Agentliyinin Aparat rəhbəri Fuad Qarayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov qanun layihəsinə münasibətlərini bildiriblər, rəy və təkliflərini deputatların nəzərinə çatdırıblar.

Müzakirələrin yekununda qərara alınıb ki, milli qanunvericilik tariximizdə mühüm sənəd olan “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” qanun layihəsi birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə olunsun.

***R.BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycanın baş prokuroru Türkiyənin ölkəmizə yeni təyin olunmuş səfiri ilə görüşüb

Mayın 24-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Cahit Bağçı ilə görüşüb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir” və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb.

Kamran Əliyev qeyd edib ki, 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdiriblər. Həmçinin işğaldan azad olunan ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirak etməsi iki ölkə arasında sıx bağların olmasının təzahürüdür.

Baş prokuror bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Cahit Bağçı ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik edib, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləyib. Səfir ölkələrimiz arasında tarixən mövcud olan qardaşlıq münasibətlərinin iki ölkə rəhbərinin apardıqları uğurlu siyasət nəticəsində bu gün ən yüksək pilləyə qalxdığını, bu əlaqələrin daha da inkişaf etməsi üçün əlindən gələni edəcəyini bildirib.

Sonda Kamran Əliyev qonağa yeni fəaliyyətə başlaması ilə əlaqədar uğurlar arzulayaraq, qarşılıqlı əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşdə həmçinin Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin rəhbərliyi ilə nümayəndə heyətinin yaxın zamanda ölkəmizə edəcəyi səfərlə əlaqədar müzakirələr aparılıb.

# Özbəkistanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndə heyəti DOST mərkəzində olub

Özbəkistan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndə heyəti 3 saylı Bakı DOST Mərkəzində olub.

DOST Agentliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentindən AZƏRTAC-a verilən məlumata görə, səfər iştirakçıları DOST mərkəzindəki xidmət bölmələri ilə tanış olub, vətəndaşlara xidmət göstərilməsi prosesini izləyiblər.

DOST Agentliyinin İdarə Heyəti sədrinin müavini Seymur Alıyev agentliyin və mərkəzlərin iş prinsipləri, eləcə də əmək və məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik və reabilitasiya, pensiya, sosial sığorta, sosial rifah, təlim sahələrində vətəndaşlara göstərilən yüksəksəviyyəli, bir pəncərə sisteminə əsaslanan xidmətlər barədə qonaqlara ətraflı məlumat verib.

Səfərin məqsədi həyata keçirilən müsbət təcrübə mübadiləsinin səmərəliliyinin artırılmasıdır.

# Avrasiya İqtisadi Əlaqələr Birliyinin nümayəndə heyəti Milli Məclisdə olub

Mayın 24-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, Həsən Bəy Zərdabi İrs Mərkəzinin təsisçisi Jalə Əliyeva Avrasiya İqtisadi Əlaqələr Birliyinin İdarə Heyətinin sədri Hikmet Erenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Jalə Əliyeva qeyd edib ki, görüşdə əsas məqsəd Azərbaycan ilə Türkiyə arasındakı sosial, ictimai, iqtisadi sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafına yardımçı olmaqdır. Deputat bildirib ki, bu əməkdaşlıq iki ölkə arasında vətəndaş cəmiyyəti və mətbuat nümayəndələri, ictimai-siyasi xadimlər, ziyalılar, eyni zamanda kiçik və orta sahibkarlıq nümayəndələrinin birbiri ilə geniş əlaqələrinin qurulmasına xidmət edəcək.

Söhbət zamanı 44 günlük İkinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi mənəvi-siyasi dəstək yüksək qiymətləndirilib.

Avrasiya İqtisadi Əlaqələr Birliyinin İdarə Heyətinin sədri Hikmet Eren Türkiyənin yüksəksəviyyəli nümayəndə heyətinin Azərbaycana səfərlərini və burada keçirilən görüşləri məmnunluqla xatırlayıb.

İki qardaş ölkənin münasibətlərindən danışan qonaq bildirib ki, əlaqələrimizin strateji səviyyədə olması bölgənin təhlükəsizliyi baxımından önəmli zəmanətdir.

Sonra Avrasiya İqtisadi Əlaqələr Birliyinin nümayəndə heyətinə mərkəzin Həsən bəy Zərdabi irsinin təbliği, Türkiyə ictimaiyyətinə tanıdılması istiqamətində fəaliyyəti haqqında məlumat verilib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan 2020-ci ilin qlobal böhranından mətinliklə çıxıb

Mayın 24-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Komitənin sədri Tahir Mirkişili iclası açaraq gündəliyə 3 məsələ daxil edildiyini deputatların diqqətinə çatdırıb.



İlk olaraq “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi (birinci oxunuş) və onunla bağlı hesabat komitənin müzakirəsinə çıxarılıb. Qanun layihəsi Hesablama Palatasının rəyi ilə birlikdə deputatlara təqdim edilib. Diqqətə çatdırılıb ki, dövlət büdcəsinin gəlirləri gözləniləndən 2,3 faiz çox, xərcləri isə 3,9 faiz az icra olunub. Komitə sədri bu göstəriciləri şərtləndirən amillərdən danışaraq 2020-ci ilin Azərbaycan xalqının tarixində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı zəfəri ilə yadda qaldığını deyib. Bildirib ki, ötən il Azərbaycanın paralel olaraq 3 cəbhədə - pandemiya, qlobal iqtisadi böhran və erməni işğalçıları ilə mübarizədə qələbə əldə etməsində dövlət büdcəsinin icrasında çevikliyin, maliyyə intizamının, iqtisadi resurslardan səmərəli istifadənin təmin olunması öz xüsusi rolunu oynayıb.

Tahir Mirkişili 2020-ci ilin çağırışları fonunda dövlət tərəfindən preventiv və çevik addımların atılmasından, həyata keçirilən iqtisadi dəstək proqramlarından, iqtisadiyyatın və əhalinin qorunması üçün sərf olunan vəsaitlərdən, əldə olunan nailiyyətlərdən danışıb.

Sonra maliyyə naziri Samir Şərifov 2020-ci ilin dövlət büdcəsinin icrasından ətraflı danışaraq əvvəlcə büdcənin icra edildiyi makroiqtisadi mühiti xarakterizə edib. Bildirib ki, ötən il də pandemiya şəraiti dünya ölkələrinin iqtisadiyyatına mənfi təsirini davam etdirib, nəticədə iqtisadi fəallıqda həm keyfiyyət, həm də kəmiyyət nöqteyi-nəzərindən azalmalar müşahidə olunub.

Pandemiyaya, 44 günlük müharibəyə, qlobal böhrana və neftin qiymətlərinin, neftə tələbatın kəskin aşağı düşməsinə baxmayaraq, Prezident İlham Əliyevin digər sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də apardığı uzaqgörən siyasəti və atdığı çevik addımlar nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanıb, dövrün çağırışlarına operativ şəkildə adekvat reaksiya verilib. Nazir qeyd edib ki, operativ tədbirlər sayəsində ölkəmiz 2020-ci ilin şoklarından mətinliklə çıxıb, iqtisadiyyatda dərin tənəzzülün qarşısı alınıb, manatın sabitliyi qorunub, hətta bir sıra sahələrdə irəliləyiş əldə edilib. Samir Şərifov çıxışında dövlət büdcəsindən pandemiya ilə mübarizəyə xərclənən vəsaitlərin həcmi və istiqamətləri barədə ətraflı məlumat verib.

İclasda iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova makroiqtisadi vəziyyət haqqında danışıb, dayanıqlığın qorunması üçün dövlətin yeritdiyi büdcə siyasəti, büdcə parametrlərində, büdcə-vergi siyasətində, büdcənin gəlir və xərclərində aparılan dürüstləşdirmələr, eyni zamanda bu dövr ərzində davam edən böhranlı şəraitin mənfi təsirlərinin azaldılması istiqamətində həyata keçirilən dəstək proqramlarının, antiböhran tədbirlərinin oynadığı rol barədə məlumat verib.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2020-ci ilin dövlət büdcəsinin icrasına dair rəhbərlik etdiyi qurumun rəyini təqdim edib. O, Hesablama Palatasına təqdim olunan “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinin və hesabatın mövcud qanunvericiliyin tələblərinə uyğunluğunun qiymətləndirilməsi, büdcə parametrlərinin doğruluğunun və tamlığının qiymətləndirilməsi, icra olunmuş büdcə parametrlərinin təsdiq olunmuş göstəricilərə uyğunluğu, büdcə vəsaitlərinin xəzinə hesabına vaxtında daxil olması barədə fikirlərini açıqlayıb.

Komitənin iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitə üzvləri Ziyad Səmədzadə, Vahid Əhmədov, Vüqar Bayramov, Mahir Abbaszadə, Rüfət Quliyev və Aydın Hüseynov çıxış ediblər. Deputatlar dövlət büdcəsinin gəlir və xərcləri barədə fikirlərini bildiriblər, onun icrasını yüksək qiymətləndiriblər və Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Sonra komitə sədri birinci oxunuşda olan “Kredit ittifaqları haqqında” qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini deputatların müzakirəsinə təqdim edib. Bildirib ki, qanun layihəsində əsasən kredit ittifaqının hər bir borcalan haqqında məlumatı kredit bürosuna və mərkəzləşdirilmiş kredit reyestrinə təqdim etməsi qaydası təsbit olunub, bu qaydanın pozulmasına görə isə məcəllədə inzibati məsuliyyət nəzərdə tutulub. Deputatlar hər iki layihəni birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Diplomatik məharətin mükəmməl örnəyi

Əvvəli 1-ci səh.

Dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin, keçmiş dövlət və hökumət başçılarının iştirak etdiyi konfransların iştirakçılarının suallarının İlham Əliyev tərəfindən dolğun cavablandırılması, Azərbaycan həqiqətlərinin bir daha dünyaya çatdırılması, regionda yaranmış yeni reallıqlara və bölgənin gələcəyi ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımından da çox uğurlu addımlardır.

Mayın 20-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən keçirilən "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı tədbirdə ünvanlanan suallara İlham Əliyevin verdiyi cavablarda Azərbaycan həqiqətləri ilə yanaşı, dünya ictimaiyyətinə olduqca mühüm mesajlar da çatdırıldı. Azərbaycanın birmənalı mövqeyi yenidən ortaya qoyuldu, dövlətimizin və regionun gələcəyi ilə bağlı konkret istiqamətlər göstərildi.

Tədbirdə dövlət başçısının səsləndirdiyi fikirlər həm də onu göstərdi ki, İlham Əliyev təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir. Regionda yeni bir dövrün başlandığını vurğulayan Prezident erməni təbliğatına hətta düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu. Azərbaycan Prezidenti tam fərqli paradiqma və informasiya strategiyası ilə çıxış etdi. Sonuncu tədbir də Azərbaycanın informasiya məkanında Ermənistanın yalanlarını ifşa etdiyini göstərdi.

Bir sözlə, yeni informasiya strategiyası müharibə dövründə Ermənistan-Azərbaycan münaqişəsi, Vətən müharibəsi haqqında həqiqətlər barədə dünya ictimaiyyətini ətraflı məlumatlandırmağa şərait yaratdığı kimi, postmüharibə dövründə də regionun gələcəyi ilə bağlı planlar, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, ermənilərin vandallığı və bunun mənəvi-hüquqi nəticələri barədə dünyaya dolğun məlumat verməyə şərait yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Vətən müharibəsi qazisi Sumqayıt Reabilitasiya Mərkəzində işlə təmin edilib

Vətən müharibəsi iştirakçısı Həsənli Sahil Rauf oğlu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən işlə təmin edilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, H.Z.Tağıyev qəsəbəsində yaşayan qazinin yaşayış yerinə yaxın olması nəzərə alınaraq agentliyin Sumqayıt şəhərindəki Reabilitasiya Mərkəzində operator vəzifəsinə təyin olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunan qazi müvafiq sosial ödənişlərlə (təqaüd və müavinət) təmin edilir. Onun mənzil və avtomobillə təminatı da həyata keçiriləcək.

Vətən müharibəsi qazilərinin yüksək texnologiyalı protezlə təminatı işləri aparılır. Artıq 17 qazi həmin müasir protezlə təmin olunub, daha 12 hərbçinin müasir protezlə təmin olunması üçün ölçülər götürülüb. Yuxarı ətrafı amputasiya olunmuş qazilərimizin də yüksək texnologiyalı protezlərlə təminatı üçün işlərə başlanıb. Onlardan biri kimi, hazırda S.Həsənlinin də yüksək texnologiyalı protezlə təmin olunması üçün işlər aparılır.

# Xalq rəssamı Tahir Salahov son mənzilə yola salınıb

SSRİ-nin və Azərbaycanın Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, Avropa Elm və İncəsənət Akademiyasının həqiqi üzvü, Dövlət mükafatı laureatı Tahir Salahov dəfn olunub.



AZƏRTAC xəbər verir ki, mərhum I Fəxri xiyabanda torpağa tapşırılıb.

Dəfn mərasimində Mədəniyyət Nazirliyinin nümayəndələri, elm və mədəniyyət xadimləri, mərhumun ailə üzvləri iştirak ediblər.

Mərhumun məzarı üzərinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva adından əklil qoyulub.

Qeyd edək ki, Tahir Salahov 1928-ci il noyabrın 29-da Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra o, 1945-1950-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbində, 1951-1957-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsil alıb.

Tahir Salahov 1963-1974-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda, 1975-ci ildən isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda pedaqoji fəaliyyət göstərib və 1984-1992-ci illərdə həmin institutda kafedra müdiri vəzifəsində çalışıb.

Tahir Salahov 1979-1983-cü illərdə UNESCO yanında Plastik Sənətlər Assosiasiyasının vitse-prezidenti, 1983-cü ildən fəxri prezidenti olub, 1992-ci ildə Rəssamların Beynəlxalq Federasiyasının vitse-prezidenti seçilib. O, bir sıra ölkələrin mötəbər yaradıcılıq qurumlarının fəxri üzvü idi.

Tahir Salahov zəngin yaradıcılığında milli ənənələrlə dünya incəsənətinin ən mütərəqqi dəyərlərinin ahəngdar vəhdətinə nail olub və Azərbaycan mədəniyyəti salnaməsinə yeni parlaq səhifələr yazıb. Ötən əsrin 60-cı illərinin əvvəllərində Azərbaycanda özünəməxsus milli rəngkarlıq məktəbinin formalaşmasında Tahir Salahovun müstəsna xidmətləri vardır. "Sərt üslub" adlandırılan istiqamətin liderlərindən biri olan, daim yenilik hissi ilə yaşayan novator sənətkarın qrafik lövhələrində, mənzərə və natürmortlarında yaradıcı əməyin romantikası, mənəvi gözəllik, eləcə də yüksək amallı insanın daxili aləmi rənglərin incə çalarları ilə lakonik ifadəsini tapıb. Eyni zamanda Tahir Salahov teatr-dekorasiya sənəti sahəsində uğurlu fəaliyyət göstərib, məharətli teatr rəssamı kimi səhnə əsərlərinə yaddaqalan orijinal bədii tərtibatlar verib.

Tahir Salahovun dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinin, habelə hər biri hadisəyə çevrilən fərdi sərgilərinin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində xüsusi əhəmiyyəti olub. Dünya şöhrətli fırça ustasının uzunmüddətli səmərəli yaradıcılığı və məhsuldar ictimai fəaliyyəti hər zaman diqqət mərkəzində olub və yüksək qiymətləndirilib.

Görkəmli sənətkar Tahir Salahovun işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

# *DTX:* Ölkə hüdudlarından kənarda qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən şəxs saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) xarici ölkələrin ərazisində fəaliyyət göstərən qanunsuz silahlı birləşmələrin tərkibində iştirak edən Azərbaycan Respublikasının vətəndaşlarının müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması istiqamətində mübarizə tədbirlərini davam etdirir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, aparılmış araşdırmalar zamanı Azərbaycan Respublikasının vətəndaşı 1986-cı il təvəllüdlü Camalov Orxan Tofiq oğlunun 2014-cü ildə ölkə hüdudlarını tərk edərək İŞİD terror təşkilatının Suriyadakı silahlı qruplaşmasına daxil olması, həmin qanunsuz birləşmənin tərkibində fəaliyyət göstərməsinə dair əldə edilmiş məlumatlar əsasında əməliyyat-istintaq tədbirləri həyata keçirilib.

Əvvəllər Orxan Camalov Zaqatala rayon sakini İlqar Mollaçiyevin rəhbəri olduğu "Meşə qardaşları" adlı qanunsuz silahlı birləşmənin üzvlərinin ölkə ərazisində terror-təxribat aktları törətmək niyyətlərinin qarşısının alınması məqsədilə aparılmış əməliyyat-axtarış tədbirləri zamanı yaşadığı ünvana baxış keçirilərkən əl qumbaraları və müxtəlif çaplı patronlar aşkarlandığına görə müvafiq cinayət işi üzrə məhkum olunub. Orxan Camalov azadlığa çıxdıqdan sonra "Hanzala" ləqəbli Şamil adlı şəxsin dəvəti və köməyi ilə 2014-cü ilin avqustunda Türkiyə Respublikasına, oradan isə qanunsuz yollarla Suriya Ərəb Respublikasının ərazisinə keçərək həmin dövlətin Rakka şəhərinə gedib. Orxan Camalovun orada İŞİD terror təşkilatına tabe olan "Azəri camaatı" adlı qanunsuz silahlı birləşməyə qoşulmasına, həmin cinayətkar qrupun tərkibində təlimlərdə və silahlı münaqişələrdə iştirak etməsinə əsaslı şübhələr müəyyən olunub.

Faktlarla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə Orxan Camalov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 218.2-ci (cinayətkar birlikdə iştirak etmə) və 283-1.3-cü (dini məzhəbləri yayma, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə məqsədilə yaradılmış qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. O, dindirilərkən din adı altında aldadılaraq həmin bölgəyə getdiyini, orada baş verən hadisələrin dinin əsl mahiyyətinə zidd olduğunu və törətdiyi cinayət əməllərini etiraf edərək səmimi peşmançılıq hissi keçirdiyini bildirib.

Hazırda cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# İlham Əliyev "ruhlar şəhəri"ni cənnətə çevirəcək

## Ağdamda quruculuq işləri başlayıb



Əvvəli 1-ci səh.

"Böyük Qayıdış"ın və quruculuğun ünvanlarından biri də Ağdamdır. Hazırda ilkin olaraq işğal dövründə ermənilər tərəfindən dağıdılmış tikililərin söküntüsü həyata keçirilir. Söküntü işlərinə xeyli sayda texnika cəlb edilib.



Qeyd edək ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da tarixdə misli görünməmiş vandallıq ediblər. Bir vaxtlar şöhrəti ilə tanınan Ağdam şəhəri atom bombası ilə dağıdılmış Xirosima və Naqasakini xatırladır. Şəhərdən əsər-əlamət qalmayıb. Ermənilər Ağdamda xalqımızın tarixi-mədəni irsinə qarşı da vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Düşmən Şahbulaq qalasını erməniləşdirməyə çalışıb, tarixə qarşı cinayətkarlıq edib.

"Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın". Prezident İlham Əliyev bunu ötən ilin noyabr ayının 24-də Ağdam şəhərinə səfəri zamanı bildirmişdi. Hazırda Ağdamın bərpası istiqamətində layihələr həyata keçirilir. "Böyük Qayıdış"ı yaxınlaşdıran Bərdə-Ağdam avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolu xəttinin yenidən qurulması da davam etdirilir. Avtomobil yolunun uzunluğu 45 kilometrdən artıqdır. Ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün ötən il Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ilkin olaraq 5 milyon manat ayrılıb. O cümlədən 2021-ci il dövlət büdcəsində dəmir yolu xəttinin tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaiti nəzərdə tutulur.



Ötən ay Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev bütün şəhərlərin baş planlarının hazırlandığını və bunun, ilk növbədə, Ağdam şəhərini əhatə edəcəyini bildirmişdi. Göründüyü kimi, yol infrastrukturunun ardından Ağdam şəhərində quruculuq işlərinə start verilir. Prezident İlham Əliyev ən qısa zamanda "ruhlar şəhəri"ni cənnətə çevirəcək və Ağdamın yaraları tam sağalacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Peyvəndləmədən keçmək və qaydalara riayət etmək mütləqdir

Əvvəli 1-ci səh.



Mayın 22-si və 23-ü şənbə və bazar günləri Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran, Şirvan, eləcə də respublikamızın digər ərazilərində dezinfeksiya işləri aparılıb. İcra hakimiyyətlərinin aidiyyəti struktur bölmələri səhər saatlarından əsas küçə, prospekt və yollarda, eləcə də ətraf kənd və qəsəbələrdə kommunal təsərrüfat xidmətlərinin texnikası və əməkdaşları tərəfindən xüsusi kimyəvi maddələrlə növbəti dezinfeksiya işləri həyata keçirmişlər. Yazın gəlişi və havaların nisbətən isti keçməsi ilə əlaqədar insanların bir neçə saatlığa istirahətə gedə biləcəkləri park və yaşıllıq guşələrində təmizlik, səliqə-sahman işlərinə diqqət artırılıb. Bu kimi yerlərdə prospekt və meydançalarda, ümumiyyətlə, insanların çoxluq təşkil etdiyi ərazilərdə işin keyfiyyətli və səmərəli olması nəzərə alınaraq dezinfeksiya tədbirləri iki gün davam etdirilib. Mayın 22-si və 23-də şənbə və bazar günləri Bakı ŞİH-nin yerli strukturları tərəfindən mərkəzi küçələrlə yanaşı, paytaxtın qəsəbə və kənd yollarında, habelə yaşayış massivlərinin ətrafında da dezinfeksiya işləri aparılıb. Yaz mövsümi ilə əlaqədar mənzillərin pəncərə və müəyyən havalandırma hissələrinin açıq saxlanıldığı və istifadə edilən maddələrin qəbul olunmuş müəyyən toksikliyi nəzərə alınaraq əvvəlcədən sakinlərə ehtiyatlı olmaq, imkan daxilində küçəyə çıxmamaq barədə xəbərdarlıq edilmişdi. Bu sahədə Bakı şəhəri, Nəsimi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin 59 saylı Mənzil Kommunal İstismar Sahəsinin, eləcə də Bakı şəhəri Mənzil Kommunal Departamenti 1, 2 və 3 saylı Xüsusi Təyinatlı Mənzil Kommunal Təsərrüfatı Birliyi işçilərinin, habelə Xətai rayonundakı 135 saylı Mənzil Kommunal İstismar Sahəsi işçilərinin fəallığı diqqətçəkən olmuşdur. Nəsimi rayon 59 saylı MKİS-in rəisi Ramil Süleymanovla paytaxtın Zabitlər parkı kimi tanınan ərazisində iş üstündə görüşdük. O bildirdi ki, MKİS-in işçiləri ötən ayların təcrübəsinə əsasən tapşırılan işə məsuliyyətlə yanaşırlar. Mövsümlə əlaqədar indi əhalinin daha çox üz tutduğu Zabitlər bağında, eləcə də Bakıxanov (köhnə Sevil) parkında oturacaqlarda, gəzinti xətlərində dezinfeksiya və səliqə-sahman işləri aparırıq. Mühəndis Ağabala Haqverdiyevin rəhbərliyi altında Samir Əhmədov, Rəfail Hüseynov, Həsən Əliyev, Səməd Vurğun, Mərdanov qardaşları, Cəlil Məmmədquluzadə küçələrində növbəti dezinfeksiya işlərini davam etdirmişlər. Sahənin əməkdaşlarından Əlövsət İsmayılov, İlahə Zeynalova, Güləsər Cəfərova, Südabə Məmmədova və digərləri balansımızda olan yaşayış binalarında, liftlərdə, həyət və yaşayış məhəllələrində, idman-əyləncə qurğularında, məişət tullantılarının atıldığı konteyner meydançalarında xüsusi cədvələ uyğun tibbi-profilaktik və dezinfeksiyaedici tədbirləri yüksək səviyyədə həyata keçiriblər. Televiziyadan eşidir və qəzetlərdən oxuyuruq ki, hazırda respublikamızda koronavirusa yoluxma hallarında azalma müşahidə olunur. Biz buna sevinirik. Elə hiss edirik ki, bu dəhşətli virusdan yoluxmanın qarşısının alınmasında bizim də əməyimiz var.

Görünən odur ki, aylardan bəri aparılan dezinfeksiya işlərinə, məsafə gözləmə və gigiyenik qaydalara düzgün əməl edildiyindən və ölkəmizin bütün bölgələrini əhatə etməklə aparılan peyvəndləmə işləri uğurla həyata keçirildiyindən əhali arasında koronavirus infeksiyasına yoluxma və ölüm halları nisbətən azalıb. Buna baxmayaraq, infeksiyanın yayılma sürətini minimuma endirməli, peyvəndləmədə fəallıq göstərməli, yüngülləşdirici qaydaların tətbiqinə ciddi riayət edilməlidir.

Tibb elmləri doktoru, professor Vaqif Şadlinskinin fikrincə, yazın soyuqlu-küləkli günlərində, eləcə də isti havalarda dezinfeksiya işləri lokal xarakter daşıyır. Odur ki, vətəndaşlarımız yumşaldıcı tədbirlərin onlara verdiyi üstünlüklərdən səmərəli istifadə etməklə virusun yayılmasına imkan verməməli, qaydalara mümkün qədər ciddi riayət etməlidirlər. Bu zaman yoluxma halları azalar və aparılan peyvəndləmə müsbət nəticə verər.

Fəsil dəyişməsi zamanı virus infeksiyalarına yoluxma riskinin yüksək olduğunu nəzərə çatdıran professor onu da qeyd etdi ki, bu fəsillərdə soyuqlama zamanı insanlarda qrip xəstəliyinin əlamətləri də müşahidə edilir. Bu halda işlər bir qədər çətinləşir. Bu baxımdan yüngül geyim də kəskin küləkli havalarda qrip, soyuqlama koronavirus xəstəliyini ağırlaşdırır. Odur ki, sağlamlığı qorumaq üçün diqqətli olmaq gərəkdir.

Alim bildirdi ki, qrip xəstəliyi özü xüsusi diaqnoz tələb edir. COVID-19 kimi qrip xəstəliyinə də diaqnoz yalnız PSR müayinəsi əsasında qoyulur: "Lakin əvvəllər də belə olub ki, qripə əlamətlərinə görə klinik diaqnoz qoyulub və bu, xəstəlik vərəqəsində tənəffüs yollarının infeksiyası kimi qeyd edilirdi. Amma COVID-19 diaqnozu klinik deyil, yalnız PSR müayinəsindən sonra qoyulur. Hava-damcı yolu ilə keçən viruslar uşaqdan-böyüyə hamını bu xəstəliyə yoluxdura bilir. Amma bir məsələ daim diqqətdə saxlanılmalıdır ki, insan yoluxduğu zaman səhhətində hər hansı qeyri-adi hal hiss edərsə, tibbi yardım üçün mütləq sahə həkiminə müraciət etməlidir. Hamı nəzərdə saxlamalıdır ki, gigiyenik qaydalara əməl edən insanlara virus az hallarda keçə bilir. Belələri xəstələnmədən virusa qarşı immunitet qazanır. Əgər hansı şəxslərə çox virus keçərsə, immuniteti nə qədər güclü olsa belə, yenə xəstələnib ciddi fəsadlarla qarşı-qarşıya qala bilər.

Bütün bunlar həm də onu diktə edir ki, qaydaları gözləmək və peyvəndləmədən keçmək mütləqdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***






# REGİONLAR



## Almanlarla əməkdaşlıq perspektivləri müzakirə edilib

Almaniya Süni İntellektin Araşdırılması Mərkəzi və Aqrar İnnovasiya Mərkəzi, Aqrar Tədqiqatlar Mərkəzi, Azərbaycan Dövlət Aqrar Universiteti arasında onlayn formatda görüş keçirilib.

Tədbirdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin təhsil sektorunun müdiri Emin Əliyev aqrar sektorda həyata keçirilən rəqəmsallaşma tədbirləri, "ağıllı" kənd konsepsiyası ilə bağlı aparılan tədqiqatlar haqqında məlumat verib.

Almaniya Süni İntellektin Araşdırılması Mərkəzinin Ağıllı Kənd Texnologiyaları Mərkəzinin rəhbəri Dr. Stefan Siene Mərkəzin fəaliyyəti və Almaniyada 4-cü sənaye inqilabının aqrar sektora təsiri ilə bağlı təqdimatla çıxış edib.

Daha sonra Aqrar İnnovasiya Mərkəzi, Aqrar Tədqiqatlar Mərkəzi, Azərbaycan Dövlət Aqrar Universitetinin mütəxəssislərinin aqrar sektorun müxtəlif sahələri ilə bağlı təqdimatları tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Aqrar İnnovasiya Mərkəzinin direktor müavini Samir Süleymanov öz təqdimatında mərkəzin fəaliyyəti və qarşıda duran məqsədlərə toxunub. Eyni zamanda Azərbaycanda süni intellektin tətbiq edildiyi sahələr, gələcəkdə bu istiqamətdə görüləcək işlər barədə məlumat verib. Azərbaycan Dövlət Aqrar Universitetin prorektoru Anar Hətəmov ali təhsil müəssisəsinin İnnovasiya Mərkəzi və start up layihələri barədə tədbir iştirakçılarını məlumatlandırıb. Qeyd edilib ki, bu sahəyə yönələn diqqət sayəsində yaxın zamanda aqrar sektor ilə kibernetik və fiziki sistemlərinin sintezi nəticəsində daha yüksək nəticələr əldə etmək mümkün olacaq.

Eyni zamanda görüşdə gələcəkdə birgə əməkdaşlıq haqqında fikir mübadiləsi də aparılıb. Vurğulanıb ki, növbəti görüşlərdə Azərbaycanla Almaniya tələbə və mütəxəssislərin aqrar proqramlaşdırma sahəsində birgə əməkdaşlığı, Aqrar sahədə Əşyaların İnterneti (İoT), hakatonların təşkil edilməsi və Big Data analitikası mövzuları barədə müzakirələrin aparılması məqsədəuyğundur.

## Fermerlər, toxum istehsalçıları və idxalçıları üçün təlim keçirilib



Dövlət Toxum Fondunun təşkilatçılığı ilə Şəkidə təlim keçirilib. Təlimdə Dövlət Toxum Fondu, Əkinçilik Elmi-Tədqiqat İnstitutu, Aqrar Xidmətlər Agentliyinin Şəki Laboratoriya, Ekspertiza və Sertifikatlaşma Mərkəzinin mütəxəssisləri, fermerlər, toxum istehsalçıları və idxalçıları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Şəki Dayaq Məntəqəsinin (DM) müdiri Qeysər Fərəcov "Toxumluq əkin sahələrində aqrotexniki qulluq işlərinin aparılması" mövzusunda təqdimatla çıxış edib. Dövlət Toxum Fondunun Texniki təminat və planlama şöbəsinin müdiri Akif Akbər toxumların təmizlənib kondisiyaya çatdırılmasının, sertifikatlaşdırılmasının effekti və zəruriliyi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Təlim daha sonra Şəki DM-in nümayiş əkini sahəsində davam etdirilib. Sahədə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun xəstəlik və zərərəvericilərə nəzarət laboratoriyasının müdiri Namella Əzizova müxtəlif buğda və arpa sortlarının xəstəlik və zərərvericilərə sirayətlənməsinin qiymətləndirilməsi barədə əyani olaraq ətraflı məlumat verib.

Tədbirin sonunda müzakirələr aparılıb, fermer və təsərrüfat rəhbərlərini maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, tədbir çərçivəsində seminar iştirakçıları Şəki Toxum Emalı zavodu ilə yaxından tanış olublar.

Tədbir Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin rejimi ilə bağlı tövsiyə və tələblərinə ciddi əməl edilməklə keçirilib.

## Torpağın səxavəti ilə insanın zəhməti üst-üstə düşəndə...

Cəlilabadın torpağı bərəkətli və səxavətlidir. Sovetlər zamanında yaranmış "Cəlilabad torpağından digər yerlərdə, xüsusən Muğan ərazisində gübrə kimi istifadə etmək olar" ifadəsi indi də tez-tez xatırlanmaqdadır. Bu, həqiqətən də belədir.



Şabalıdı rəngli Cəlilabad torpağı öz qoynunda nə nemət desən yetişdirir, həm də yüksək məhsuldarlıqla. Burada torpağa nə əksən xeyrini, bəhərini görərsən. Şübhəsiz ki, insan əməyi, zəhməti nəticəsində. Bu torpağın özü nə qədər səxavətlidirsə, adamları da bir o qədər çalışqan və işgüzardır. İlin bütün fəsillərində onlar sahədə iş başındadırlar - şum edir, əkin aparır, sahələri becərir, yetişdirdikləri məhsulu yığırlar. Bu işlər başa çatanda gələn ilin məhsulunun əsasını qoymaq vaxtı yetişir.

### Taxıl biçininə hazırlıq görülür

Cari ilin məhsulu üçün rayonda keçən ilin payızında 61 min 700 hektara taxıl əkilmişdir ki, bunun da 56 min 500 hektarı buğda, 5 min 200 hektarı arpadır. Həmin əkinlərin 35 min hektarına azot və karbamid gübrələri verilib. Bu il yazın yağmursuz keçməsi, habelə əkin suyunun azlığı üzündən zəmilər normal inkişaf etməmişdir. Mütəxəssislər deyirlər ki, bunlar məhsuldarlığa öz təsirini göstərəcək.

Deyilənlərə baxmayaraq, arpa və buğda zəmiləri artıq sünbül bağlamışdır. Son günlərin istiləri yetişməni sürətləndirmişdir. Arpa sahələri artıq ağarır. Bir neçə gündən sonra taxılbiçən kombaynlar aylardan bəri sükuta qərq olmuş həmin yerlərin sakitliyini pozacaq. Artıq məhsul yığılacaq anbarlar təmir edilir, onlarda dezinfeksiya aparılır, taxılbiçən kombaynlar, məhsulu sahədən daşıyacaq ağırtonlu yükünüözüboşaldan maşınlar, digər texnikalar bir daha yoxlanılır.

### Üzümlüklərin becərilməsi davam edir

Üzüm bağlarında da aqrotexniki tələblərə uyğun becərmə işləri gedir. Cərgələrin arası xüsusi texnika ilə yumşaldılır, alaq otlarından təmizlənir, suvarma, ziyanvericilərə qarşı mübarizə və digər tədbirlər həyata keçirilir.

Hazırda rayon üzrə 1401 hektar üzüm bağı vardır ki, onun da 70 hektarı yeni salınmışdır. Keçən il 22 min 900 ton üzüm yığılmışdır. Bu da hər hektardan 163,5 sentner məhsul deməkdir. 2002-2003-cü illərdə rayona gətirilən "Prima", "Kordinal", "Alifons", "Ağ kişmiş", "Qara kişmiş" və digər sortlar 3-cü ildə bara düşmüşdür. Halbuki həmin sortlar Fransada 6-7 il sonra məhsul verir.

Rayonda üzüm istehsalı və emalı ilə "Avanqard" MMC məşğul olur. Müəssisənin 450 hektar üzüm bağı vardır. Yetişdirilən texniki sortlardan burada müxtəlif adda şərablar çəkilir.

### Kartof yığımı sürətlənir

Rayonda kartof yığımına may ayının əvvəllərində başlanmışdır. Bu, sellofan örtük altında becərilənlərdir. Ümumiyyətlə, burada bir ildə üç dəfə kartof yetişdirilir. İlk nübar məhsul sellofan altında olanlardır. Onun yığımı başa çatandan sonra, yəni may ayının 15-dən etibarən seçmə yolu ilə açıq havada əkilən kartof yığılır. Məhsul yığımının bol olan vaxtı da bu dövrə təsadüf edir.

Fermerlər nübar kartofu yerli bazarlarla yanaşı, soyuducusu olan iri maşınlarla Rusiya Federasiyasının iri şəhərlərinə yola salırlar. İlkin qiymətlər yüksək olduğundan fermerlərə yaxşı gəlir gətirir. Lakin qiymətlər getdikcə düşür. Bununla belə, sahibkarlar yenə qazancsız qalmırlar. Belə olmasaydı, əkinin hektarı çoxaldılmazdı.

Cari ilin məhsulu üçün yanvar və fevral aylarında 5 min 400 hektarda kartof əkini aparılmışdır. Bu da ötən ildəkindən xeyli artıqdır. Muğan, Maşlıq, Göytəpə, Kazımabad, Qarazəncir və başqa kənd və qəsəbələrinin ərazisində 3 min nəfərə yaxın torpaq mülkiyyətçisi kartofçuluqla məşğuldur.

Keçən il hər hektarın məhsuldarlığı 264 sentner, başqa sözlə, 26,4 ton olmuşdur. Yetişdirilən kartofdan, ümumilikdə, 7 milyon manata yaxın vəsait daxil olmuşdur ki, bunun da 3 milyon manatı xalis gəlirdir. Lakin bu il yaz aylarında yağıntının az olması fermerləri müəyyən qədər məyus etmişdir. Bitkilər normal su içə bilmədiyindən barı istər say, istər çəki cəhətdən zəifdir.

Sabirabad kəndindən olan fermer İsmayıl Ağalarov 6,5 hektarda kartof əkmişdir. Deyir ki, keçən il hər hektardan 30 ton məhsul götürdüyü halda, indi 15 ton həddinə güclə yaxınlaşır. Səbəbini isə pandemiya ucbatından ölkəyə vaxtında keyfiyyətli toxumun gətirilməməsi, hava şəraitinin əlverişsiz olması, bitkilərə lazımi mineral maddələrin vaxtında verilməməsi və su qıtlığı ilə əlaqələndirir.

### Çiyələk istehsalı ildən-ilə artır

Cəlilabad torpağı çiyələk yetişdirilməsi üçün də əlverişlidir. Odur ki, istehsalı ildən-ilə artır. Hazırda çiyələk sahələrində iş, necə deyərlər, bulaq kimi qaynayır. Qızlar, gəlinlər yetişən məhsulu yığır, cavan oğlanlar isə onu xüsusi taralara qablaşdıraraq maşınlarla Bakının "Meyvəli bazar"ına və digər satış obyektlərinə yola salırlar.

Çiyələyin gəlirli sahə olduğunu görən mülkiyyətçilər onun daha məhsuldar və keyfiyyətli sortlarının gətirilməsinə nail olmuş, becərilməsi və yetişdirilməsi texnologiyasına yiyələnmişlər. Belə fermerlərdən biri də Vaqif Musayevdir. O, 1995-ci ildən bu sahə ilə məşğuldur. Neft Akademiyasını - ovaxtkı Neft və Kimya İnstitutunu bitirib. Təhsilini başa vurduqdan sonra ailə vəziyyəti ilə əlaqədar böyüyüb boya-başa çatdığı Cəlilabad rayonuna qayıdıb. Elə o vaxtdan taleyini torpağa bağlayıb. Əslinə qalsa, burada heç bir qeyri-adilik yoxdur. Fermer V.Musayevin ana babası, Sosialist Əməyi Qəhrəmanı Nüsrət Məmmədov nəinki Cəlilabadda, bütün Azərbaycanda tanınmış kənd təsərrüfatı işçisi olub. Heydər Əliyev rayona səfərləri zamanı dəfələrlə iş üstündə onunla görüşüb, söhbətlər aparıb.

Sahibkar V.Musayev yalnız çiyələk yetişdirilməsi ilə məşğul olmur. Eyni zamanda bu il 30 hektarda taxıl, 3 hektarda kartof əkib-becərmişdir. Bundan əlavə, 50-dən çox arı ailəsi saxlayır. Özünün dediyi kimi, güzəranı yaxşıdır. Üstəlik, mövsüm vaxtı onlarla həmyerlisini də işlə təmin edir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Tovuz kümçüləri bu il bol məhsul əldə edəcəklərinə əmindirlər



Dövlətin baramaçılığın inkişafına verdiyi dəstəkdən yararlanan rayonlardan biri də Tovuzdur. Rayonda son illər bu gəlirli sahəyə maraq xeyli artıb. Cəmi 30-40 gün çəkilən əziyyətin bəhrəsini görən sakinlər ildən-ilə daha çox barama istehsal etməyə həvəs göstərirlər.

Hazırda ölkənin hər yerində olduğu kimi, Tovuzda da kümçülər gərgin iş rejimi ilə işləyirlər. Götürülmüş barama qurdlarının bəslənməsi və yemlə təmin olunması prosesi gedir. Xüsusilə qapalı şəraitdə saxlanılan barama qurdlarının yem təchizatının vaxtında ödənilməsi diqqət mərkəzində saxlanılır.

Öyrəndik ki, cari ildə rayon kümçüləri, ümumilikdə, 200 qutu barama qurdunun toxumunu götürmüşlər. Onlar keçən ildən fərqli olaraq bu il daha çox məhsul - 8 ton barama istehsal etməyi qarşılarına məqsəd qoymuşlar. Bunun üçün 62 kümçü ilə müqavilə bağlanmışdır. Barama qurdlarının yemlənməsi üçün yem ehtiyatı da istənilən qədərdir. Rayonun müxtəlif ərazilərində 31,8 min tut tingi əkilmişdir ki, onun da 20,5 mini Çin Xalq Respublikasından gətirilmişdir. 11,3 mini isə yerli tut ağaclarıdır. 2016-cı ildə əkilən ağaclar artıq bara düşmüşdür.

Alakol kəndində yaşayan Valeh və Taleh Sadıqov qardaşları artıq 5 ilə yaxındır ki, baramaçılıqla məşğuldurlar. Bu il keçən ilkindən daha çox, yəni hər biri 5 qutu barama toxumu götürən kümçülər demək olar ki, baramaçılığın sirlərini dərindən mənimsəmişlər. Dedilər ki, keçən il barama-qurdunda yaranan xəstəlik məhsuldarlığa mənfi təsir göstərdi: "Nəticədə məhsuldarlıq aşağı oldu. Odur ki, bu il keçən ilki ziyanın əvəzini çıxmaq üçün xeyli çox barama toxumu götürdük. 400 kiloqram məhsul almaq üçün bütün qüvvələri səfərbər etmişik. Bu işdə ailə üzvlərimiz də yaxından iştirak edirlər".

Qovlar şəhər sakinləri Allahverdi Zeynalov 6, Elman Allahverdiyev isə 4 qutu barama toxumu götürüb. Onların da ailə üzvləri gecə-gündüz baramaya nəzarət edir, yemlənməsini vaxtında aparırlar.

Ümumiyyətlə, rayonun bütün kəndlərində baramaçılığa maraq artıb. Məsələn, Aşağı Quşçu kəndinin sakinləri Ramin Verdiyev, Samirə Eyyubova, Qaratel Səmədova və Sona Qələndərova hər biri 3 qutu baramaqurdu götürmüşlər. Cəlilli kəndindən Şamxal Həsənzadə isə bu il 4 qutu baramaqurdu bəsləyir. Qarşısına məqsəd qoymuşdur ki, 160 kiloqram barama təhvil versin. Bu işdə ona kənd sakinləri Murad Aslanov, Kəmaləddin Məmmədov, Səfxan İsmayılov, Rövşən Nağıyev və başqaları yaxından kömək göstərirlər. Cəlilli kəndinin digər sakinləri Ramin Qələndərov da az baramaqurdu toxumu götürməmişdir - 6 qutu. Həmkəndliləri Cabir İsmayılov, Ramin Quliyev, Elçin Quliyev, Nurlan Cəfərov və Elçin Rüstəmzadə ilə birlikdə bu il 240 kiloqram barama təhvil verəcəyinə əmindir.

Düz Cırdaxan kəndinin sakini Akif Mehdiyev bu işlə 5 ildir ki, məşğul olur. Artıq baramaçılıqda zəngin təcrübə toplayıb. Bu işdə həyat yoldaşı Nəsibə Qəhrəmanova, eləcə də kənd sakinləri Niyaməddin Dəmirov, Samir Axundov və Günay Musayeva ona dəstək olurlar. Deyir ki, yem sarıdan elə bir problem yoxdur. Buna baxmayaraq, gələcəkdə barama istehsalını artırmaq üçün indidən güclü yem bazası yaradır. Bunun üçün o, həyətində 500 tut tingi yetişdirir. Payızda onu kəndin müxtəlif ərazilərində əkməyi planlaşdırır.

Ümumiyyətlə, Tovuzda baramaçılıq sürətlə inkişaf edir. Artıq rayonda bu sahədə çoxlu sayda təcrübəli kümçü yetişmişdir. Onlar bu gəlirli sahəni bundan sonra da inkişaf etdirmək üçün əllərindən gələni əsirgəmirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Qaradəmirçi kəndində inşa edilən məktəb binasında son tamamlama işləri görülür

Bərdə rayon Qaradəmirçi kənd tam orta məktəbi üçün inşa edilən 624 şagird yerlik yeni binada son tamamlama işləri aparılır.

Tikintidə sahə rəisi Həsənəli Əfəndiyev AZƏRTAC-a bildirib ki, məktəb binası Təhsil Nazirliyinin sifarişi ilə inşa edilib. Üç mərtəbədən ibarət məktəb binasının ümumi tikinti sahəsi 2700 kvadratmetrdir. Məktəbdə 26 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, əmək təlimi, hərbi hazırlıq, informatika və hesablama texnologiyası kabinələri, idman və akt zalları, kitabxana, yeməkxana, inzibati otaqlar yaradılıb. Bina istilik, elektrik və havalandırma sistemləri ilə təmin edilib.

Məktəbin həyətində qazanxana, generator, içməli, çirkab və yanğın əleyhinə su anbarları tikilib. Hazırda idman meydançası hazırlanır, məktəbin həyətində abadlıq və yaşıllıq işləri həyata keçiriləcək. İşlərin iyun ayının sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

Qaradəmirçi kənd məktəbi üçün yeni binanın tikintisi sakinlərin, ziyalıların, müəllimlərin, şagirdlərin və valideynlərin böyük sevincinə səbəb olub. Kənd tam orta məktəbinin müəllimi Nizami Hüseynov bildirib ki, 1986-cı ildə inşa edilmiş binada 1990-cı illərin əvvəllərində qaçqın və məcburi köçkünlər məskunlaşdığından 25 ilə yaxın dövrdə təhsil ocağı uyğunlaşdırılmış siniflərdə fəaliyyət göstərib. Amma buna baxmayaraq, müəllim və şagird kollektivi təhsilini davam etdirib. Çətinliklərə baxmayaraq, məktəbin uğurları çox olub.

"Artıq məktəbimiz üçün yeni binanın inşası yekunlaşır. Məktəb üçün yeni binanın tikilməsi bizi daha da ruhlandıracaq və təhsilin səviyyəsinin yüksəlməsinə səbəb olacaq. Yeni tədris ilində yeni məktəb binasında yeni arzularla və yüksək əhvali-ruhiyyə ilə dərsə başlayacağıq. Biz müəllimlər bundan sonra tədrisin daha da keyfiyyətli olmasına çalışacaq, dövlətimizin qayğısına işimizlə cavab verəcəyik", - deyə N.Hüseynov bildirib.

## Balakəndə indiyədək 7 min hektardan çox sahədə qarğıdalı əkilib

Bu il Balakən rayonunun təsərrüfatlarında 7 min 520 hektar sahədə dən üçün qarğıdalı əkilməsi nəzərdə tutulur.

Hazırda təsərrüfatlarda qarğıdalı əkini yekunlaşmaq üzrədir. Torpaq mülkiyyətçiləri bu günədək 7 min 50 hektar sahəyə qarğıdalı əkiblər. Bu, proqnozlaşdırılan əkin sahəsinin 93,7 faizini təşkil edir.

Bu barədə AZƏRTAC-a Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Şahin Rəhimli məlumat verib. Qeyd edək ki, hazırda Balakən rayonu qarğıdalı bitkisinin əkin sahəsinə və istehsal olunan məhsulun həcminə görə respublikada ön sırada yer alır.

Ötənilki mövsümdə balakənli fermerlər 7 min 515 hektar sahədən 46 min 288 ton dən qarğıdalı tədarük ediblər. Hər hektardan orta hesabla 61,6 sentner məhsul götürülüb. Qarğıdalı istehsalı əvvəlki illə müqayisədə 2 min 115 ton artıb.

## AFAQ layihəsi çərçivəsində qadın fermerlərlə görüş olub

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə həyata keçirilən AFAQ (Aqrar Fəaliyyətli Azərbaycan Qadınları) layihəsi çərçivəsində qadın fermerlərlə görüşlər davam edir. Aqrar fəaliyyətlə məşğul olan qadınlarla növbəti görüş İmişli rayonunda keçirilib.

Rayonun Şahverdili kəndində keçirilən görüşdə "Aqrar Tədarük və Təchizat" ASC-nin İdarə Heyətinin sədri Aqil Quliyev, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, "PAŞA Holdinq"in nümayəndəsi Bəyim İbrahimova, AFAQ layihəsinə müraciət etmiş qadın fermerlər iştirak ediblər.

Görüşdə çıxış edən natiqlər həyata keçirilən bu sosial layihənin qadınlar arasında aqrar fəaliyyətə marağı artırdığını bildiriblər. Layihə icraçıları fərdi təsərrüfatlarda məhsul istehsalı və emalını daha düzgün təşkil etmək üçün qadın fermerlərin ehtiyaclarını öyrənir, müvafiq avadanlıqlarla təmin edirlər. Layihə çərçivəsində təlimlərə cəlb olunan qadınlar bildiriblər ki, müvafiq avadanlıqlarla təmin olunmaqla məhsul istehsalı və emalı prosesində keyfiyyət göstəricilərini artırmağa müvəffəq olacaqlar.

Görüşdən sonra iştirakçılar qadın fermerlərin idarə etdikləri təsərrüfatlara baxış keçiriblər. Layihənin mərhələlərini uğurla tamamlayan 14 təsərrüfat sahibi əvvəlcədən aparılan qiymətləndirmələrə əsasən, təsərrüfatlarının ehtiyacları üzrə kənd təsərrüfatı avadanlıqları (seperator, süd sağan aparat, dən üyüdən avadanlıq, ot doğrayan avadanlıq, süd sağan aparat, yem üyüdən aparat və s.) ilə təmin olunublar.

Qeyd edək ki, AFAQ layihəsi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən qadınların dəstəklənməsi, onların bilik və bacarıqlarının artırılması, maliyyə və digər resurslara çıxışlarının asanlaşdırılması məqsədilə icra edilir. Bu günədək layihəyə 600-ə yaxın müraciət daxil olub, 145 müraciətçinin təsərrüfatına baxış keçirilərək qiymətləndirmə sorğusu aparılıb. Layihənin tələblərinə cavab verən, ümumilikdə, 82 təsərrüfat sahibinə isə müvafiq avadanlıqlar və aktivlərlə dəstək göstərilib.

## Taxıl çörəkdir, zəhmətin halal payıdır



Kənd təsərrüfatı ilə məşğul olanlar yaz fəslinə ruzi-bərəkətin başlanğıc dövrü kimi baxırlar. İndi kəndlərdə traktor və kombaynların səsindən qulaq tutulur, sahələrdən qalxan toz duman kimi ətrafdan əskik olmur.

Baş verən bu canlanma şimal bölgəsinin əsas iqtisadi rayonlarından olan Şabranda da hiss olunur. Yaşıllıqlarla örtülən çöllər üzə gülür, hər yerdə həyat, iş qaynayır, kəndlilər gələcək ruzilərinin təməlini qoyurlar.

Şabranda bu il 14626 hektarda taxıl əkini aparılıb. Mart-aprel aylarının yağışlı keçməsi taxılın bol olacağından soraq verir. Bu, buğdanın boy artımından da görünür.

Cari mövsümdə rayon üzrə 5920 hektarda arpa əkilib. Hazırda sahələrdə alaq otları təmizlənir, biçinə hazırlıq görülür. Ağbaş, Ağalıq və Çölquşçu kəndlərində Qəşəm Həsənov, Səbirə Vəliyeva və Vahid Əsədovun təsərrüfatlarında vəziyyət yaxşıdır. Ötən il də onlar məhsul istehsalında fərqlənmişlər.

Rayonda bu təsərrüfat ilində əkilən taxılın 8705 hektarı isə buğdadır. İyun ayının əvvəllərində biçinə start veriləcəyi planlaşdırılır. Son günlər havaların qızması məhsuldarlığın yükcək olacağından xəbər verir.

Öyrəndik ki, rayonda taxıl sahələrinə nəzarət xüsusi proqram əsasında aparılır. Sahibkarların problemləri operativ həll edilir. Onlar lazımi qədər gübrə, texnika ilə tam təmin olunublar.

Bir azdan yaşıl zəmilər saralaraq dənə gələcək. Çünki sinoptiklər qarşıda isti günlərin olacağını bildirirlər. Bu da əkinçilərin zəhmətinin hədər getməyəcəyindən xəbər verir.

Şabranda taxıl biçini Quba, Qusar və Xaçmaz rayonları ilə müqayisədə bir qədər tez başlayır və hər il bu kampaniya xüsusi proqram əsasında aparılır. Yeri gəlmişkən qeyd edək ki, rayondakı 24 kombaynın hamısı işlək vəziyyətdədir. Onların yanacaqla təminatında problem olmayacaq.

Şabranda yerli şəraitə və iqlimə uyğunlaşdırılmış müxtəlif buğda sortları əkilir. Mütəxəssislər, "Qobustan", "Elit", "Azəri-95" və digər sortların məhsuldarlığının yüksək olduğunu bildirirlər. Odur ki, cari ildə hər hektardan əvvəlki illərə nisbətən daha çox məhsul götürüləcəyi hesablanıb.

Taxıl biçininə sayılı günlər qalır. Saralan dənlərin biçini ilə kəndlinin təsərrüfat həyatının əzəli başlayır. Babalar buyurub ki, buğdanın becərilməsi ilə torpağın nemət payı artar. Əbəs yerə ona bərəkət demirlər ki?! Şabranlı fermerlər bunu yaxşı başa düşür və məsuliyyət hisslərini daha da artırırlar. Necə deyərlər, min əziyyətlə becərdikləri taxılı zəhmətlərinin payı kimi də biçəcəklər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# VƏTƏN SƏNƏ OĞUL DEYİR

## Şəhid zabit Tərtərdə ehtiramla dəfn olundu






Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşmüş Azərbaycan Ordusunun baş leytenantı, Tərtər rayonunun Kəngərli kənd sakini 1993-cü il təvəllüdlü Qənbərli Qənbər Bəhruz oğlunun nəşi doğulduğu kənddə torpağa tapşırıldı.

Şəhidin dəfn mərasimində Tərtər rayonunun rəhbərliyi, hüquq mühafizə orqanlarının nümayəndələri, eləcə də şəhidin xidmət etdiyi hərbi hissənin əsgər və zabitləri, kənd sakinləri iştirak etmişlər.

Mərasimdə vurğulanmışdır ki, torpaqlarımızın işğaldan azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulur, ehtiramla anılır. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbə əldə etdi, 30 il işğal altında olan Vətən torpaqları erməni faşizmindən birdəfəlik azad olundu. Bu zəfəri bizə yaşadan Qənbər kimi igid oğulların xatirəsi isə heç vaxt unudulmayacaq və gələcək nəsillərə qəhrəmanlıq nümunəsi olacaq.

Sonra tabutun üzərindəki dövlət bayrağı şəhidin atası Bəhruz Qasımova təqdim olundu.

Dəfn mərasiminin iştirakçıları məzarlıqda dəfn olunan digər şəhidlərin məzarlarını da ziyarət etmiş, ruhlarına dualar oxumuş, məzarların üstünə gül-çiçək qoymuşlar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Qəhrəmanlıq və vətənpərvərlik ocağı

### Qardaşların biri itkin, biri şəhid, digəri qazidir




Goranboyda olarkən Xan Qərvənd kəndində yaşayan Musa Ağalarovun ocağını ziyarət etməyi özümüzə borc bildik. Qapını Zümrüd ana açdı. Evə daxil olanda nəzərimizi ilk olaraq divardan asılmış iki nəfərin şəkli cəlb etdi.

Zümrüd Ağalarova dedi ki, hər ikisi oğlumdur. Yaşar birinci, Nahid isə İkinci Qarabağ müharibəsinin şəhididir. Əgər Yaşara şəhid demək mümkündürsə? Son dəfə Tərtərin Qapanlı kəndi uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü ilin aprel ayında itkin düşüb. O vaxtdan indiyə kimi ya ölüsü, ya da dirisi barədə məlumatımız yoxdur. 18 yaşı var idi.

Bu vaxt arxadan kimsə bizə xoşgəldiniz etdi. Zümrüd ana dedi ki, həyat yoldaşı Musadır. Tərpənişindən bildik ki, çöhrəsindən nuranilik yağan bu ağsaqqal olduqca işgüzardır. Bir qolunun işləməməsinə baxmayaraq, bir yerdə dayana bilmir, özü üçün iş axtarır. Böyük bağbağça, həyət-baca sahibi olan Musa kişi yorulmaq bilmədən çalışır.

Öyrəndik ki, ailənin 6 oğul övladı olub. Nahid hərbçi idi. Keçən il İkinci Qarabağ müharibəsi başlayanda digər hərbçilərimiz kimi, o da döyüşlərə atıldı. Füzulinin, Şuşanın və digər ərazilərimizin düşməndən azad olunmasında fədakarlıq göstərdi. Döyüşlərin getdiyi vaxt tez-tez evlə əlaqə saxlayırdı. Yenicə evlənmişdi. 2 yaşında bir qızı da var idi. Həyat yoldaşı Tinatin ondan çox nigaran olduğunu söyləyəndə Nahid ona bircə söz deyirdi: "Vətəndən əziz heç nə ola bilməz".

Nahid hələ Xan Qərvənd kənd orta məktəbini bitirəndə hərbçi olmağı qarşısına məqsəd qoymuşdu. Odur ki, həqiqi hərbi xidməti başa vuranda müddətdən artıq xidmət göstərməyi qərara aldı, gizir kimi nümunəvi xidmət göstərməyə başladı. Keçən il sentyabrın 27-də Qarabağ uğrunda müharibə başlayanda Nahid də döyüşlərə atıldı və... Xocavənddə minaya düşərək şəhid oldu.

Nahidin nəşi doğulub boya-başa çatdığı Goranboy rayonunun Xan Qərvənd kəndindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dövlət başçısının sərəncamı ilə ölümündən sonra o, "Vətən uğrunda" medalı ilə təltif olunub.

Ailənin üçüncü oğlu Vüqar da Birinci Qarabağ müharibəsində iştirak edib. Çıldıran, Sırxavənd və digər bölgələrimizdə gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Döyüşlərin birində isə ağır yaralanaraq kontuziya alıb.

Söhbət zamanı hər iki valideyn dövlətdən razılıq etdilər. Dedilər ki, daim dövlətin qayğıkeşliyini hiss edirlər. Rayon rəhbərliyi tez-tez onlara baş çəkir, problemləri ilə maraqlanır, onları həll edir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Güzdəkdə şəhid Rüstəm Turabovun adına abidə-bulaq kompleksi tikilib

Abşeron rayonunun Güzdək qəsəbəsində şəhid Rüstəm Fərman oğlu Turabovun xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilən abidə-bulaq kompleksinin açılışı olub.

Açılış mərasimində bildirilib ki, şəhid Rüstəm Turabovun həyat yolu gənc nəslin vətənpərvərlik ruhunda böyüməsində böyük əhəmiyyətə malikdir. Qeyd olunub ki, Rüstəm Turabov Vətən müharibəsi başlayanda könüllü cəbhəyə yollanaraq Füzuli, Hadrud, Xocavənd istiqamətində döyüşlərdə şücaət göstərib. Oktyabr ayında Ərgünəşli yüksəkliyinin azad olunması uğrunda gedən döyüş əməliyyatlarında isə şəhidlik zirvəsinə yüksəlib. Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonda şəhid Rüstəm Turabovun məzarı ziyarət olunub, ruhuna dualar oxunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



## Gəncədə şəhidlərin xatirəsinə abidə kompleksi inşa edilir

Gəncədə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə abidə kompleksi inşa edilir.



Kompleksdə Qarabağ uğrunda gedən hər iki savaşda şəhidlik zirvəsinə ucalan igidlərimizin, habelə Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin şəkilləri yer alacaq.

Abidənin müəllifi Əməkdar rəssam Şərif Şərifov bildirib ki, kompleksin əsas mövsuzu qələbədir. Burada inşa edilən "Şəhid bulağı" isə xalqımızın, xüsusilə gəncəlilərin qədim adətlərini özündə ehtiva edir: "Suyun ehsan edilməsi bizim köhnə adətlərimizdəndir. Zənnimcə, bu amil abidənin daha da doğmalaşmasına təkan olacaq".

Şəhid Ağamirzə Quliyevin atası İlham Quliyev bu təşəbbüsü yüksək qiymətləndirdiyini qeyd edir. "Şəhidlərimizin ruhuna hər zaman dərin hörmət və ehtiram nümayiş olunur. Biz şəhid ailələri də dövlətimizin daim diqqətindəyik. Bunun üçün dövlət başçısı və şəhər rəhbərliyinə minnətdarlığımızı bildiririk", - deyə o bildirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə inşa olunan kompleks İstiqlal parkında yerləşəcək. Abidənin sözügedən məkanda inşasına şəhid ailələrinin təklifləri əsasında Gəncə Şəhər İcra Hakimiyyəti yanında İctimai Şuranın iclasında qərar verilib.

İctimai Şuranın üzvü, Cavad xan Tarix və Mədəniyyət Fondunun birinci vitse-prezidenti Müzadil Həsənov bildirib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin yaşadılması, onların tanıdılması hər birimizin borcudur: "İnşa edilən abidə kompleksi də bu torpaqları Vətən edənlərə göstərilən dərin hörmət və ehtiramın nümunəsi olacaq".

Abidə kompleksinin yaxın zamanda təhvil verilməsi nəzərdə tutulur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhidliyi ilə zəfəri yaxınlaşdırdı




44 günlük Vətən müharibəsində parlaq qələbəmizi canı, qanı bahasına haqq edən igidlərimizdən biri də 33 il əvvəl mayın 19-da Tərtər rayonunun Kəbirli kəndində dünyaya göz açmış Hacıyev Qubad Cəmil oğludur. Məkrli düşmənlərin törətdiyi xəyanətlər, insanlığa sığmayan əməllər Qubadın özünə həyat yolu seçməsində təsirsiz qalmadı.



Qubad həqiqi hərbi xidmətini başa vursa da, ordudan ayrılmadı. Ermənistan silahlı qüvvələri ilə üzbəüz hərbi hissədə gizir kimi hərbi xidmətini davam etdirdi. Qubad Qarabağı işğaldan azad etmək, erməni faşistlərindən layiqli qisas almaq həvəsi ilə alışıb yanır, intiqam anını səbirsizliklə gözləyirdi.

Zəfər savaşının ilk güllə səsləri eşidiləndə gözlədiyi məqamın yetişdiyini düşünən Qubad uşaq kimi sevindi. İlk uğurlu döyüş əməliyyatlarında sarsıdıcı zərbələr alan düşmən döyüş texnikası və canlı qüvvə sarıdan böyük itkilər verərək geri çəkiləndə sanki ürəyindən tikan çıxırdı. Artıq əmin idi ki, müharibə çox çəkməyəcək, düşmən tezliklə darmadağın edilib torpaqlarımızdan qovulacaq.

Təəssüf ki, Qubada arzusunda olduğu qələbəni görmək qismət olmadı. Suqovuşan uğrundakı şiddətli döyüşdə qəhrəmanlıq göstərən Qubad şəhid oldu.

Qubad Hacıyev doğulub boya-başa çatdığı Kəbirli kənd qəbiristanlığında dəfn olunub. Məzarı üstündən təzə-tər qızıl güllər əskik olmur. Uyuduğu məkan müqqədəsləşib, kənd əhalisinin ehtiram ünvanına çevrilib.

Mayın 19-da Qubadın 33 yaşı tamam oldu. Tərtər rayon rəhbərliyi, müharibə veteranları, Qubadın döyüş yoldaşları qəhrəman şəhidin məzarını ziyarət etdilər, ruhuna dualar oxudular.

Şəhidin Tərtərdə bacarıqlı tar müəllimi kimi böyük hörmət sahibi olan atası Cəmil Hacıyev:

- Düşünəndə ki, oğlum xalqımızı, dövlətimizi 30 illik xəcalətdən qurtarmaq, dədəbaba yurdlarımızı işğaldan azad etmək uğrunda döyüşlərdə şəhid olub, böyük təskinlik tapıram. Babalarımız "Oğul düşmən çəpəridi" deyiblər. El qeyrəti çəkən, Vətənə qurban olan oğlumla fəxr edirəm. Qələbə qurbansız olmur. Qələbə sevincini canları bahasına bizə yaşadan oğullara xalqın və dövlətin verdiyi dəyəri ən böyük təsəlli kimi qəbul edirəm. Vətənimizin başı sağ olsun.

***L.QULİYEV,***
***"Azərbaycan"***

## Sumqayıtda qazilərə sosial dəstək tədbirləri davam edir



"Böyük Qayıdış" Gənclər Təşkilatı Vətən müharibəsi qazilərinə sosial dəstək tədbirləri çərçivəsində Gənclər Fondunun dəstəyi və Sosial Xidmətlər Agentliyinin tərəfdaşlığı ilə Sumqayıtda "Qayıdış" gənc qazilər üçün sosial-psixoloji dəstək layihəsi keçirib.

Bakıdan sonra Sumqayıtda icra olunan layihə çərçivəsində tərəfdaş qurumların nümayəndələri, millət vəkilləri, layihənin ekspert və qonaqları gənclər təşkilatlarının nümayəndələrinin iştirakı ilə Gənclərin İnkişaf və Karyera Mərkəzinin Sumqayıt nümayəndəliyində 5 gün ərzində 10 görüş keçirib. Sumqayıtda yaşayan və sosial-psixoloji reabilitasiyaya ehtiyacı olan gənc qazilər peşəkar təlimçilərin iştirakı ilə motivasiya, psixoloji dəstək və tanınmış simaların iştirakı ilə motivasiya xarakterli görüşlərdə iştirak ediblər.

***A.ƏLİYEV,***
***"Azərbaycan"***

## Gədəbəydə şəhid ailələrinin problemləri operativ həll edilir

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanlardan biri də Gədəbəydə doğulub boya-başa çatmış Tural Məmişovdur.

Tural Məmişov ölümündən sonra dövlət başçısının sərəncamları ilə Qubadlının, Laçının, Cəbrayılın azad olunmasına görə, eləcə də "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Başqa şəhid ailələri kimi, Tural Məmişovun ailəsi də dövlətin hər cür qayğıkeşliyi ilə əhatə olunmuşdur. Bu günlər şəhidin ailə üzvləri növbəti dəfə Gədəbəy Rayon İcra Hakimiyyətində qəbul edilmiş və problemləri dinlənilmişdir. Şəhid ailəsinin müraciəti əsasında əlaqədar yerli qurumlara konkret göstərişlər verilmişdir.

Ümumiyyətlə, Gədəbəydə bütün şəhid ailələrinin sosial qayğıları diqqət mərkəzində saxlanılır, problemləri operativ həll olunur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Dövlət Sosial Müdafiə Fondunun Aparatında və struktur bölmələrində birdəfəlik sosial ödənişləri əhaliyə çatdırmaq məqsədilə göstəriləcək bank xidmətlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün iştirakçılara təklif edilir ki, **tender@sosial.gov.az** elektron poçt ünvanına müraciət edərək məlumat əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Təkliflər sorğusu ilə satınalmada iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra təkliflər sorğusunda iştirak edə bilərlər. Müsabiqə üzrə təklifləri möhürlənmiş ikiqat zərfdə Bakı şəhəri, Yasamal rayonu, H.Zərdabi 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim edə bilərlər.

**Təkliflər sorğusu 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 500,00 (beş yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Təkliflər sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər:

1. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə:
1.1 Peşəkarlığı, təcrübəsi, texniki imkanları, idarəetmə səriştəsi və etibarlığı barədə məlumatlar (xidmət göstərən tərəfindən hazırlanır).
1.2 İşçi qüvvəsinin olması barədə məlumatlar (xidmət göstərən uçotda olduğu vergi orqanından alır).
2. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (xidmət göstərən kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd).
3. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumatlar (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
4. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması haqqında məlumat (xidmət göstərən bu məlumatı Mərkəzi Bankdan alır).
